QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 198 (5670) **19 oktyabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Yeniləşən yol infrastrukturu

## İlham Əliyev: “Yol infrastrukturuna görə Azərbaycan indi dünya miqyasında qabaqcıl yerdədir”



Səh 3

8

**Xarici casus həbs edildi - Dövlət Təhlükəsizliyi Xidmətindən əməliyyat**



9

**ABŞ səfirinin etirafı Ermənistanın ikiüzlü siyasətinin ifşasıdır**



6

**Azərbaycan nümayəndə heyəti Pekində Tayhu Dünya Mədəniyyət Forumunda iştirak edir**



# "Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir"

*Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Senatı sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsindən və bütövlükdə siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluğunu bildirdi. "İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır", - deyən dövlətimizin başçısı bir çox İtaliya şirkətlərinin Azərbaycanda müxtəlif layihələr icra etdiyini və onlardan birinin bu il İtaliya və Azərbaycan prezidentlərinin iştirakı ilə ölkəmizdə açıldığını bildirdi. Prezident İlham Əliyev ölkələrimizin energetika sahəsində əməkdaşlıq etdiyini, mədəniyyət sahəsində əlaqələrimizin gözəl nəticələr verdiyini dedi. Dövlətimizin başçısı münasibətlərimizin hərtərəfli inkişafı üçün parlamentlərarası əlaqələrin böyük rol oynadığını vurğulayaraq bu əməkdaşlığın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində ölkələrimiz tərəfindən qəbul edilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin rolunu qeyd etdi. Dövlətimizin başçısı İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin strateji tərəfdaşlıq əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.





Qonaqpərvərliyə və xoş sözlərə görə minnətdarlığını bildirən İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati dedi: "Biz bilirik ki, Azərbaycan həm ənənə, həm də mədəniyyət baxımından çox zəngin ölkədir. Təbii ki, mənim səfərim iki ölkə arasında olan dostluq əlaqələrinin bir daha təsdiqidir".

İkitərəfli münasibətlərimizin inkişafında ölkələrimiz arasında həyata keçirilən yüksək səviyyəli səfərlərin önəminə toxunan İtaliya Senatının sədri öz səfərinin də əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz və xalqlarımız arasında bir çox oxşarlığın olduğunu bildirən italiyalı qonaq dedi: "Azərbaycanda müxtəlif millətlərin dinc birgə yaşaması onu göstərir ki, İtaliya ilə Azərbaycan bu sahədə də uğurlu əməkdaşlıq həyata keçirə bilərlər".

Görüşdə sənaye, enerji, neft-kimya, mədəniyyət, infrastruktur, kənd təsərrüfatı, ekologiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Sonda xatirə şəkli çəkdirildi.

# "Azərbaycan ilə Türkmənistan arasında əlaqələr zəngin tarixə malikdir"

*Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Nazirlər Kabineti Sədrinin müavinini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin zəngin tarixə malik olduğunu bildirdi və bu gün ikitərəfli münasibətlərimizin bütün sahələri əhatə edərək uğurla inkişaf etdiyini dedi. Ölkələrimizin ikitərəfli və çoxtərəfli formatda fəal əməkdaşlıq həyata keçirdiyini vurğulayan Prezident İlham Əliyev son illər birgə səylər nəticəsində əlaqələrin yeni səviyyəyə yüksəldiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında siyasi sahədə fəal qarşılıqlı fəaliyyətin mövcud olduğunu dedi, ölkələrimizin digər istiqamətlərdə, o cümlədən nəqliyyat, energetika, mədəniyyət sahələrində də əlaqələrinin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bütün bunlar bizim uzun əsrlik qardaşlıq əlaqələrimizə əsaslanır və biz münasibətlərimizin gələcəyinə nikbinliklə baxırıq. Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan və eləcə də xalqlarımız arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirərək Rəşid Meredovun səfərinin qardaşlıq münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini dedi.



Xoş sözlərə görə minnətdarlığını bildirən Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov, ilk növbədə, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və ehtiramını dövlətimizin başçısına çatdırdı. Xarici işlər naziri Rəşid Meredov bildirdi ki, Türkmənistan dövlətinin başçısı Prezident İlham Əliyevi Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik etmək barədə tapşırıq verib və o, Qurbanqulu Berdiməhəmmədovun təbrik məktubunu dövlətimizin başçısına təqdim etdi.

Göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını və ən səmimi arzularını Türkmənistan Prezidentinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın və Türkmənistanın dövlət başçıları arasında mövcud olan dostluq əlaqələri ölkələrimizin münasibətlərinin inkişafında mühüm amildir. Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Yeniləşən yol infrastrukturu



**Məlum olduğu kimi, güclü iqtisadiyyat güclü rəqabətədavamlı və keyfiyyətli istehsaldan başlayır. Bu baxımdan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illərdə sürətlə inkişaf edən respublikamız dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib.**

Son 15 ildə dövlət başçısının uğurla həyata keçirdiyi siyasət Azərbaycanı regionda ən sürətlə inkişaf edən, məqsədlərinə doğru inamla irəliləyən dövlətə çevirib. Xüsusilə, son illər ölkəmizin sosial-iqtisadi inkişafını şərtləndirən əsas amillərdən sayılan yol infrastrukturu sahəsində köklü dəyişikliklər baş verib, mühüm layihələr həyata keçirilib. Dövlət başçısının tapşırıq və göstərişlərinə uyğun olaraq, Azərbaycanda beynəlxalq və respublika əhəmiyyətli yolların müasir səviyyəyə çatdırılması istiqamətində mühüm işlər görülüb.

Digər mühüm məqam respublikanın kənd və qəsəbələrini birləşdirən yolların inşası və yenidən qurulması işlərinin geniş vüsət almasıdır. Bu layihələr bütün bölgələri əhatə edir. Ölkə başçısının Sərəncam və göstərişlərinə əsasən, regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin, yaşayış məntəqələrinin daxili yollarının təmiri və yenidən qurulması, ümumilikdə, bölgələrimizin sosial-iqtisadi, turizm və kənd təsərrüfatı potensialını gücləndirir. Bütün bu tədbirlərin əsas məqsədi vətəndaşların gündəlik həyatını asanlaşdırmaq və daha da yaxşılaşdırmaqdır.

Dövlət başçısı çıxışlarında da bildirib ki, avtomobil yollarının tikintisi infrastruktur layihələri arasında önəmli yer tutan sahədir: "Bu, həm iqtisadi, həm sosial sahədir. Rahat, hamar yollar insanlara rahatlıq gətirir. Eyni zamanda, yol olmadan bölgələr inkişaf edə bilməz, nə turizm, nə də sənaye istehsalı inkişaf edə bilər, kənd təsərrüfatının inkişafı üçün də problemlər yaranar. Hazırda kənd yollarının tikintisi geniş vüsət alıb. Biz görürük ki, harada yeni yol çəkilir, o bölgədə canlanma daha da sürətlə gedir, kənd təsərrüfatı istehsalı artır. Nəyə görə? Çünki bazarlara rahat çıxış olur. Beləliklə, yol infrastrukturu, sadəcə olaraq, sosial layihə deyil".

## İlin sonuna kimi reallaşdırılan avtomobil yolu layihələrinin ümumi uzunluğu 2 min km-i ötüb keçəcək

Onu da qeyd edək ki, dövlətimizin başçısı cari il ərzində Avtomobil Yolları Dövlət Agentliyinin kollektivi qarşısında, ən azı 600 kəndi əhatə edəcək 2 min kilometrdən artıq avtomobil yolu çəkilməsi kimi çox məsuliyyətli tapşırıq qoyub.

Azərbaycan Prezidentinin tapşırığının icrası ilə əlaqədar olaraq, adıçəkilən qurum tərəfindən 2018-ci il üçün tərtib edilmiş Tədbirlər Planına əsasən, uzunluğu 415,2 km olan respublika əhəmiyyətli 11, Bakı şəhəri üzrə uzunluğu 107,8 km olan 13 və uzunluğu 1527,8 km olan 67 kəndlərarası avtomobil yolu layihəsi və 2 körpünün bərpası, Sumqayıt şəhərində 2 prospekt və 2 küçənin yenidən qurulması və Bakı şəhərində 5 ədəd piyada keçidinin tikintisi layihəsinin yerinə yetirilməsi nəzərdə tutulub. Bu layihələrin həyata keçirilməsi nəticəsində 702 yaşayış məntəqəsində yaşayan 2,7 mln. nəfər əhalinin 2 050,8 km uzunluğunda rahat avtomobil yollarından istifadə etmələri təmin ediləcək.

## <u>İlham Əliyev:</u> "Yol infrastrukturuna görə Azərbaycan indi dünya miqyasında qabaqcıl yerdədir"




Eyni zamanda, Bakı-Quba-Rusiya ilə dövlət sərhədi yeni avtomobil yolunun tikilməsi də prioritetlər sırasındadır. Şimal istiqamətində icrasına başlanılmış bu layihə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsini təşkil edir və bölgədə turizmin, kənd təsərrüfatının inkişafına və beynəlxalq yükdaşımaların həcminin artmasına müsbət təsir göstərəcək. 2018-ci ilin ilk 6 ayı ərzində isə, respublikanın ümumi istifadədə olan avtomobil yollarında qəzalı vəziyyətə düşmüş 7 körpü təmir edilib. Ümumilikdə, 2018-ciilin 8 ayı ərzində respublikanın 33 rayonunda 38 layihə - 4 respublika əhəmiyyətli, 30 kəndlərarası, 1 Bakı şəhərinin qəsəbələrarası, 1 tunel tipli yol qovşağı və Sumqayıt şəhərində 2 avtomobil yolu layihələri üzrə tikinti və yenidənqurma işləri başa çatıb. Bakı şəhərində ümumi uzunluğu 46,5 km olan şəhər yolları yenidən qurulub və təmir olunub. İlin sonuna kimi, reallaşdırılan avtomobil yolu layihələrinin ümumi uzunluğu isə 2 min km-i ötüb keçəcək.

## Regionlara hər səfər sosial rifahdan xəbər verir

Məhz bu baxımdan, dövlət başçısının, ənənvi olaraq, bölgələrə səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir.

Prezident İlham Əliyevin bölgələrə səfərləri, bir daha göstərdi ki, regionların inkişafı hər zaman dövlət başçısının diqqətindədir. Son on beş ildə əldə olunan uğurlara diqqət yetirsək, görərik ki, Azərbaycanda heç vaxt qısa zaman ərzində, bu qədər iş görülməyib. Xüsusilə, infrastruktur layihələrinin reallaşdırılması, ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər hər zaman dövlət başçısının diqqət mərkəzində olub. Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində bu gün Azərbaycanın regionlarında yol infrastrukturu yenilənib, su, qaz və elektrik enerjisi təminatı xeyli yaxşılaşdırılıb. Bütün bunlar, təbii ki, regionların inkişafına olan diqqətin birbaşa ifadəsidir.

## Yol infrastrukturunda yeni həyat, yeni nəfəs və yeni mədəniyyət...

Göründüyü kimi, qeyd olunan real faktlar, bir daha onu sübut edir ki, Azərbaycanda yol infrastrukturunun inkişafı bu gün ölkənin əsas prioritetlərindən birinə çevrilib. Ona görə də, yol təsərrüfatına göstərilən yüksək qayğı sözügedən sahədə daha böyük uğurların əldə olunmasına zəmin yaradır. Ölkə Prezidentinin imzaladığı sərəncamlar və bu sərəncamlarda nəzərdə tutulan layihələrin icrasına Prezidentin Ehtiyat Fondundan ayırdığı maliyyə yardımı bir daha dövlət başçısının Azərbaycan vətəndaşlarına qayğısının real nəticəsidir. Belə ki, cari ilin ötən aylarında da bu istiqamətdə tədbirlər davam etdirilib və daha 40 kəndlərarası, qəsəbələrarası avtomobil yollarının tikintisi ilə bağlı Sərəncam verilib. Bax, reallıq budur!

Dövlətimizin başçısı ölkədə həyata keçirilən yol-infrastruktur layihələrinin əhəmiyyətini vurğulayaraq deyib: "Bu il 40 kənd yolu layihəsi icra edilməlidir. Bu layihələrin icrası yüzlərlə kəndin yol təsərrüfatını yaxşılaşdıracaq və əlbəttə ki, həm insanlara rahatlıq verəcək, eyni zamanda, iqtisadi inkişaf üçün də bunun böyük müsbət təsiri olacaq. Keçən il də kənd yolları layihələri uğurla icra edilmişdir. Bu il bu proses davam etdiriləcək. Əminəm ki, yaxın gələcəkdə bir dənə də olsun təmirsiz kənd yolu qalmayacaq".

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Lənkəran, Astara və Lerik rayonlarına səfəri zamanı da Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması ilə bağlı Sərəncamına əsasən son illərdə yağan aramsız yağıntılar nəticəsində, uzunluğu 55 km olan Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması məqsədi ilə 9,2 milyon manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Göründüyü kimi, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində, Azərbaycanda yüksək sürətli və dayanıqlı sosial-iqtisadi inkişafa nail olunub. Dövlət başçısının söylədiyi kimi, yol olan yerdə, inkişaf da olur: "Bu, doğrudan da, çox əlamətdar hadisədir. Yol olan yerdə, inkişaf da olur. İndi həm sərmayə qoyuluşu, həm kənd təsərrüfatının inkişafı yol infrastrukturu ilə bağlıdır. Çünki yol həm insanlar üçün xidmət edir, gediş-gəliş asanlaşır, eyni zamanda, sizin məhsulunuz da bazarlara tez bir zamanda çatdırılır, itki də olmur. Yol kənd təsərrüfatı ilə məşğul olmaq üçün də əlavə imkanlar yaradır. Ona görə, yol həm sosial, həm iqtisadi layihədir. Ölkəmizdə yol layihələrinə çox böyük diqqət verilir. Demək olar ki, indi bütün magistral yollarımızda ən müasir səviyyə yaradılıbdır".

Bir sözlə, bütün bunlar onu göstərir ki, zəngin potensiala malik olan Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu daxili siyasəti sayəsində qazanılan nailiyyətlərin sırasında bu sahənin inkişafı önəmli yer tutur. "Azərbaycanda ən müasir nəqliyyat-yol infrastrukturu yaradılacaq", - deyən ölkə başçısı İlham Əliyev ötən illərdə avtomobil yollarının, yol qurğularının açılışı ilə bağlı çoxsaylı mərasimlərdə iştirakı zamanı bu sahənin inkişafı üçün öz dəyərli tapşırıq və tövsiyələrini verib.

Beləliklə, bütün bunlar, təbii ki, regionların inkişafına olan diqqətin birbaşa ifadəsidir.

**RƏFİQƏ KAMALQIZI**



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüş Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulan Azərbaycanın "Milan Ekspo 2015" Ümumdünya sərgisindəki milli pavilyonunda keçirilib.***

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellatini Bakıda görməkdən şad olduğunu bildirdi. Mehriban Əliyeva

# "Azərbaycan ilə İtaliya arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır"

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliya Senatının sədri ilə görüşüb*



qonağın İtaliya Senatının sədri kimi ölkəmizə ilk dəfə səfər etdiyini bildirərək, bu səfərin ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Azərbaycan ilə İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyən Birinci vitse-prezident əlaqələrimizin bir çox sahələri əhatə etdiyini vurğuladı.

"Əminəm ki, Bakıya səfəriniz çərçivəsində keçirəcəyiniz görüşlər gələcəkdə ölkələrimiz arasındakı potensialdan daha səmərəli istifadə etməyə imkan yaradacaq", - deyən Mehriban Əliyeva Maria Elisabetta Alberti Kasellatinin Azərbaycana səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu vurğuladı.

Qonaqpərvərliyə görə təşəkkürünü bildirən İtaliya Senatının sədri bu səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə şərait yaradacağını söylədi. İtaliya Senatının sədri kimi ölkəmizə ilk dəfə gəldiyini bir daha qeyd edən qonaq müxtəlif sahələrdə qurulan əlaqələrdən məmnunluğunu ifadə etdi. Xanım Maria Elisabetta Alberti Kasellati Azərbaycana səfərinin xüsusilə siyasi, sosial və mədəni sahələrdə əlaqələrin inkişafına kömək edəcəyini diqqətə çatdırdı. "Sizin İtaliyaya marağınız və sevginiz bizi qürurlandırır", - deyən qonaq Mehriban Əliyevanın həm Birinci vitse-prezident, həm də Heydər Əliyev Fondunun rəhbəri kimi fəaliyyətini yüksək dəyərləndirdi.

Görüş çay süfrəsi arxasında davam etdirildi. Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellati "Milan Ekspo 2015" Ümumdünya sərgisində nümayiş etdirilən milli pavilyonumuza baxdılar.

"Azərbaycan: biomüxtəlifliyin xəzinəsi" adlandırılan dördmərtəbəli milli pavilyonda ölkəmizin mətbəxini, musiqisini və mədəniyyətini təbliğ edən instalyasiyalar quraşdırılıb, müxtəlif iaşə xidməti göstərmək üçün binada müvafiq şərait yaradılıb. Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan ilk dəfə "Milan Ekspo 2015" Ümumdünya sərgisində milli pavilyonla iştirak edib. Bu layihə Azərbaycanın tarixinin və mədəni irsinin, ölkənin zəngin ekoloji, enerji potensialının və nadir biomüxtəlifliyinin beynəlxalq miqyasda tanıdılması istiqamətində böyük rol oynayıb. 2015-ci il mayın 31-dən oktyabrın 31-dək davam edən "Milan Ekspo" sərgisində pavilyonumuzda 3 milyon 250 mindən çox izləyici olub. Xarici mətbuat, o cümlədən İtaliyanın aparıcı kütləvi informasiya vasitələri milli pavilyonun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu qeyd ediblər və milli pavilyonumuz "Milan Ekspo" sərgisinin incisi adlandırılıb. Sərginin keçirildiyi müddətdə Azərbaycanın milli pavilyonu "Milan Ekspo 2015"in Təşkilat Komitəsi tərəfindən "Dizayn və materiallar" nominasiyası üzrə qalib elan olunub. Azərbaycanın milli pavilyonu Şimal və Cənub, Şərq və Qərb arasında körpü rolunu oynayan, qədim tarixi, zəngin mədəniyyəti ilə seçilən ölkəmizin bənzərsiz təbii və mədəni xəzinəsini əks etdirir. Milli pavilyonla tanışlıqdan məmnunluğunu bildirən İtaliya Senatının sədri onun şəhərimizə xüsusi gözəllik verdiyini vurğuladı.

# Professor Fəridə Səfiyevanın "Bir ömrün iziylə" kitabının təqdimatı olub

***Maqsud İbrahimbəyovun Yaradıcılıq Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Fəridə Səfiyevanın "Bir ömrün iziylə" kitabının təqdimatı olub.***







AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Kitab Azərbaycan sovet fəlsəfə tarixinin banisi, Azərbaycan SSR Elmlər Akademiyasının ilk vitse-prezidentlərindən biri akademik Heydər Hüseynovun həyat və yaradıcılığından bəhs edir.

Bakı Dövlət Universitetinin sosiologiya kafedrasının müdiri, professor, fəlsəfə elmləri doktoru, kitabın elmi redaktoru İzzət Rüstəmov, filologiya üzrə fəlsəfə doktoru, "Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri Sona Vəliyeva və digər çıxışçılar nadir arxiv sənədləri, akademikin həmkarlarının, tələbələrinin, ailə üzvlərinin xatirələri əsasında yazılan kitabda bu günə qədər ictimaiyyətə məlum olmayan bir çox məqamlara aydınlıq gətirildiyini qeyd ediblər. Bildirilib ki, 1935-1950-ci illərdə Azərbaycan elminin inkişafında mühüm xidmətləri olan alimin həyatını faciəli sonluğa gətirib çıxaran hadisələr və səbəblər nəşrdə ilk dəfə açıqlanır.

Kitabda, həmçinin Heydər Hüseynovun biblioqrafiyası, şəxsi arxivində olan sənədlərin siyahısı, onların fotoşəkli, ailə fotoalbomu yer alıb.

# Azərbaycan nümayəndə heyəti Pekində Tayhu Dünya Mədəniyyət Forumunda iştirak edir

***Çinin paytaxtı Pekində Tayhu Dünya Mədəniyyət Forumunun 5-ci illik iclası işə başlayıb. AZƏRTAC xəbər verir ki, "Sivilizasiyalararası dialoq: bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin qurulması" mövzusunda keçirilən bu ilki iclasda dünyanın 40-dan çox ölkəsindən dövlət rəsmiləri, elm adamları, ictimai xadimlər, mədəniyyət sahəsinin fəalları daxil olmaqla, ümumilikdə, mindən çox nümayəndə iştirak edir.***



Azərbaycanı bu beynəlxalq forumda Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir. İclasın açılış mərasimində çıxış edən Ümumçin Xalq Nümayəndələri Yığıncağının (parlament) sədr müavini Van Çen Çin Xalq Respublikasının Sədri Si Cinpinin forum iştirakçılarına müraciətini oxuyub. O, forumun müxtəlif mədəniyyətlərin mübadiləsi vasitəsilə birgə gələcəyin qurulmasına dair müzakirələrin aparılması üçün yaxşı platforma olduğunu deyib.



Baş nazirin müavini Əli Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tayhu Dünya Mədəniyyət Forumunun 5-ci illik iclasının iştirakçılarına müraciətini oxuyub. Azərbaycan-Çin münasibətlərinin böyük tarixi olduğunu diqqətə çatdıran Əli Əhmədov deyib ki, ölkəmiz Çin ilə əlaqələrin bütün sahələrdə inkişafına əhəmiyyət verir. Möhkəm təməllər üzərində qurulan, dostluq və qarşılıqlı etimada əsaslanan Azərbaycan-Çin əlaqələrini hazırda dinamik inkişaf edən çoxtərəfli ciddi tərəfdaşlıq münasibətləri kimi səciyyələndirmək olar.

Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün əməkdaşlığımızın daha da dərinləşməsi üçün yeni imkanlar yaratdığını diqqətə çatdıran Baş nazirin müavini əlavə edib ki, Azərbaycan bu təşəbbüsü dəstəkləyən ilk ölkələrdən biri olmaqla yanaşı, onun icrasına töhfə verməyə hazırdır. Qeyd olunub ki, tarixən müxtəlif xalqların və fərqli dinlərə inananların sülh, mehriban şəraitdə yaşadıqları Azərbaycan multikulturalizm, tolerant dəyərləri ilə seçilib. Hazırda multikulturalizm Azərbaycanda dövlət siyasəti olmaqla yanaşı, cəmiyyətin həyat tərzidir.

Dünyada bir çox ölkələrin dinlərarası qarşıdurma, separatizm, etnik təmizləmə, terrorizm kimi müxtəlif narahatlıqlarla üzləşdiyini bildirən Əli Əhmədov diqqətə çatdırıb ki, qonşu Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunub, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycan ümid edir ki, haqq-ədalət təmin olunacaq və BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrin tələbləri yerinə yetirilməklə, torpaqlarımız işğaldan azad olunacaq, ölkəmizin ərazi bütövlüyü təmin ediləcək. Baş nazirin müavini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə Çin tərəfinə təşəkkür edib.

Dünyanı narahat edən mövzuların müzakirəyə çıxarıldığı Tayhu Forumunun əhəmiyyətini qeyd edən Baş nazirin müavini deyib ki, birgə xoşbəxt gələcəyin qurulması hər kəsi düşündürən məsələ olmalıdır. Ümumi, 6 tematik və yekun iclaslardan ibarət forumda beynəlxalq münasibətlər, iqtisadiyyat, mədəniyyət, ekologiya, fəlsəfə, sosiologiya və təbabət mövzularında, habelə "Bir kəmər, bir yol" təşəbbüsünə dair müzakirələr aparılır. Forumun liderlər panelində çıxış edən Əli Əhmədov Azərbaycanın iqtisadi inkişafından, ölkəmizin mədəniyyətlərarası və dinlərarası dialoqun dərinləşməsi ilə bağlı gördüyü işlərdən danışıb, bu istiqamətdə Azərbaycanda keçirilən beynəlxalq tədbirləri qeyd edib. Bildirib ki, Azərbaycanın təşəbbüsü ilə icra olunan irimiqyaslı enerji və nəqliyyat layihələri, o cümlədən Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars layihəsi ölkəmizin regional və beynəlxalq əməkdaşlığa və inkişafa verdiyi böyük töhfələrdəndir.

Baş nazirin müavini Çin təbabəti mədəniyyətinin inkişafı ilə bağlı bölmə iclasında çıxış edərək xalqlarımız arasında tarixən mövcud olan dostluq əlaqələrindən, müasir dövrdə iki ölkənin münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən tibb sahəsində inkişafından danışıb. Azərbaycan nümayəndə heyətinin digər üzvləri də iclasın müxtəlif mövzularda bölmə iclaslarında məruzəçi qismində çıxış ediblər. Nümayəndə heyəti Pekində İmperator sarayı (Ququn sarayı) və  Saray muzeyi ilə tanış olub.

Qeyd edək ki, Çin dövlətinin dəstəyi ilə 2008-ci ildə yaradılan yüksək səviyyəli beynəlxalq mədəniyyət forumu olan Tayhunun 2011-ci ildən illik iclasları keçirilir. İllik iclas Çinin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Tayhu Dünya Mədəniyyəti Forumu və nüfuzlu "China Daily" qəzeti tərəfindən təşkil edilib.

***Şahin Cəfərov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Pekin***



# "Azərbaycan Italiya ilə münasibətlərin inkişafına xüsusi önəm verir"

## *Baş nazir Novruz Məmmədov İtaliya Senatının sədri ilə görüşüb*

***Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra İtaliya ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyini, ölkələrimiz arasında müxtəlif sahələrdə çox yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd edən Novruz Məmmədov artıq ikitərəfli münasibətlərin müxtəlif sahələrdə sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatdığını deyib.***

Əməkdaşlığımızın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin rolundan danışan Novruz Məmmədov bildirib ki, bu il İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın İtaliyaya səfərləri, aparılan səmərəli danışıqlar ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə mühüm töhfə verir.

Mədəni əlaqələrin xalqları yaxınlaşdırdığını vurğulayan Baş nazir Novruz Məmmədov Azərbaycan xalqının tarixən İtaliya mədəniyyətinə böyük maraq göstərdiyini diqqətə çatdırıb. Baş nazir İtaliya operasının dünyadakı şöhrətindən danışaraq Azərbaycanın da Şərqdə ilk operanın məkanı kimi tanındığını xatırladıb. Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə ev sahibliyi üçün namizədliyinin irəli sürüldüyünü deyən Novruz Məmmədov İtaliyanın Azərbaycanın namizədliyini dəstəkləyəcəyinə ümidvar olduğunu bildirib.

Xanım Maria Elisabetta Alberti Kasellati Azərbaycan ilə İtaliya arasında müxtəlif istiqamətlər üzrə, o cümlədən siyasi, iqtisadi, humanitar sahələrdə yaxşı əlaqələrin qurulduğunu, əməkdaşlığımızın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib. Senatın sədri Heydər Əliyev Fondunun İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən tarixi abidələrin bərpası ilə bağlı həyata keçirdiyi layihələrin ölkəsində yüksək dəyərləndirildiyini deyib, humanitar əlaqələrin daha da genişləndirilməsinin önəmini xüsusi vurğulayıb.

Maria Elisabetta Alberti Kasellati İtaliya şirkətlərinin Azərbaycanda bir sıra iqtisadi layihələrdə uğurla iştirak etdiyini söyləyib. Senatın sədri bildirib ki, İtaliya şirkətləri Azərbaycanda nəqliyyat, kənd təsərrüfatı, müdafiə sənayesi, infrastruktur və digər sahələrdə fəaliyyət göstərməkdə maraqlıdır.

Azərbaycanın Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirən qonaq deyib ki, Cənub Qaz Dəhlizi gələcəkdə ölkələrimizin iqtisadi əməkdaşlığının daha da genişlənməsinə xidmət edir. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# "Bugünkü Azərbaycan rəqabətə davamlı və müasir bir dövlətdir"



***"Dövlət müstəqilliyinin bərpası Azərbaycan tarixinin mühüm səhifələrindən biridir". Bunu SİA-ya açıqlamasında millət vəkili, tarixçi-alim Musa Qasımlı deyib. Deputatın sözlərinə görə, indiki Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq bərpa edilib: "Ötən 27 ildə keçilən yol bir çox ölkələrin onilliklər ərzində keçdiyi yola bərabərdir. Cənab Prezidentimiz İlham Əliyevin yürütdüyü siyasət nəticəsində bugünkü Azərbaycan rəqabətə davamlı və müasir bir dövlətdir. Güclü ordumuz vardır. Azərbaycan dövləti keçmiş sovet məkanında müstəqil inkişaf etməyin nümunəsini verib".***

Qeyd edək ki, 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür. Azərbaycan Respublikası Ali Sovetinin "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etməsindən 27 il ötür. XX yüzilliyin sonlarında SSRİ-nin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş etdiyi imkan nəticəsində Azərbaycan xalqı XX yüzillikdə ikinci dəfə müstəqillik bayrağını qaldırıb. Bu, xalqımızın siyasi tarixində XX əsrdəki ikinci parlaq qələbəsi idi. Rusiyadakı demokratik qüvvələrin fəaliyyəti nəticəsində SSRİ respublikalarında da mərkəzdənqaçma, öz suverenliyinə qovuşmaq istəkləri qarşısıalınmaz həddə çatmışdı. Belə şəraitdə Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında 1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının Dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamə qəbul edilib. Azərbaycan Respublikasının Ali Sovetinin həmin ilin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edilib.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olub

**Oktyabrın 18-də - Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün, Azərbaycan Respublikasının orden və medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.**



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Dövlət Aktının qəbul olunması Günü münasibətilə təbrik edərək deyib: 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Müstəqilliyi haqqında dövlət aktı qəbul olunmuşdur. Lakin o dövrün Azərbaycanında ictimai-siyasi və iqtisadi tənəzzül, vətəndaş müharibəsi, qarşıdurma, hakimiyyət uğrunda mübarizələr və bütün bunlardan istifadə edən işğalçı ölkənin torpaqlarımıza təcavüzü hökm sürürdü. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin itirilmə təhlükəsi yaranmışdı. Belə bir dövrdə Azərbaycanın milli liderə böyük ehtiyacı var idi. O zaman xalqın və ziyalıların təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli liderimiz Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qaydışı dövlət müstəqilliyimizi qorudu. Ölkəmizdə sabitlik və vətəndaş həmrəyliyi bərpa olundu, müstəqil Azərbaycan sürətli inkişaf mərhələsinə qədəm qoydu.



Ali Məclisin Sədri deyib: Bu gün Ümummilli Liderimizin yolu ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə bütün sahələrin inkişafı diqqətdə saxlanılır, dövlət proqramları qəbul olunur. Dövlət proqramlarının icrasında, xidmətlərində və fəaliyyətlərində fərqlənənlərin əməyi isə qiymətləndirilir, onlar dövlətimizin ali mükafatlarına layiq görülürlər. Bu gün təltif olunanlar da çalışdıqları sahələrdə öz əməkləri ilə fərqlənən insanlardır.

Ali Məclisin Sədri təltif olunanları ölkəmizin ali mükafatlarına layiq görülmələri münasibətilə təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.



Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü, orden və medalların, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim edib.

Prezident təqaüdçüsü Arif Əzizov çıxış edərək deyib ki, muxtar respublikada tarixi-mədəni irsimizə qayğı göstərilir. Bu sahədə görülən işlər sırasında tarixi abidələrin bərpası xüsusi yer tutur. Vaxtilə dağılmaq təhlükəsində olan abidələrimizə bu gün ikinci həyat verilir. Bərpaçıların əməyinin yüksək qiymətləndirilməsi isə bizi daha da ruhlandırır. Arif Əzizov əməyinə verilən yüksək qiymətə görə ölkə Prezidentinə minnətdarlıq edib.

Təltif olunanlardan Ruhiyyə Rəsulova minnətdarlıq edərək deyib: "Tərəqqi" medalı ilə təltif olunmağım çalışdığım Naxçıvan Dövlət Televiziyasının kollektivinin əməyinə verilən yüksək qiymətdir. Səmərəli fəaliyyət göstərmək üçün, ilk növbədə, yaxşı iş şəraiti olmalıdır. Naxçıvan Dövlət Teleradiosunda ən müasir avadanlıqlar qurulub, hərtərəfli iş şəraiti yaradılıb. Müstəqilliyimizin ilk illərində ölkəmizdəki çətinlikləri yaxşı xatırlayırıq. Lakin ötən dövrdə Ulu Öndərimizin siyasi xəttinin uğurla davam etdirilməsi xalqımızı əsl müstəqilliyə, ölkəmizi isə davamlı inkişafa və tərəqqiyə qovuşdurub. Söz veririk ki, bundan sonra da ölkəmizin, eləcə də muxtar respublikamızın müasir inkişafını, zəngin tarixi-mədəni irsini və turizm potensialını layiqincə təbliğ edəcəyik.

Dövlət qulluqçusu Sahib Məmmədov deyib: Ölkə Prezidentinin Sərəncamı ilə təltif olunmağım və bugünkü təqdimat mərasimində iştirakım həyatımda əlamətdar hadisədir. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki: "Mən həyatda yalnız üç şeyə arxalanmışam: Yaradanıma, zəhmətimə və bir də xalqıma". Bu gün Ulu Öndərimizin ideyaları müstəqil Azərbaycana xidmətin əsas istiqamətləridir. Biz də həyat və fəaliyyətimizdə Ulu Öndərimizin ideyalarına arxalanır, onun müəyyənləşdirdiyi yolun uğurlu davamına dəstək veririk. Təltif olunanlardan Səbuhi Şahverdiyev, Yaşar Həsənov, Şərafət Babayeva, Samirə Əliyeva, Hicran Hacıyeva və Xanım İsgəndərova da əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq edib, bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəklərinə söz veriblər.

# Azərbaycanın bir qrup KİV nümayəndəsi Gürcüstanda səfərdədir

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə bir qrup KİV nümayəndəsi oktyabrın 18-də Gürcüstana səfərə gəlib.***



AZƏRTAC xəbər verir ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ilə əlaqədar Fondun hazırladığı tədbirlər planı çərçivəsində təşkil olunan səfərin məqsədi jurnalistləri Cümhuriyyətin yaradıcılarının fəaliyyəti, zəngin ideya irsi ilə yaxından tanış etməkdir. Səfər çərçivəsində KİV nümayəndələri Tbilisinin mərkəzindəki Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət ediblər. Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov park barədə jurnalistlərə məlumat verib.

Azərbaycan mətbuatının nümayəndələri sonra Tbilisidəki Botanika bağında olub, buradakı köhnə müsəlman qəbiristanlığında Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarının məzarlarını ziyarət ediblər. Qeyd edək ki, səfər çərçivəsində jurnalistlər Gürcüstan parlamentində, paytaxt Tbilisidə, eləcə də azərbaycanlıların yığcam yaşadıqları bölgələrdə bir sıra görüşlər keçirəcəklər.

# AzerTelecom Türkmənistanda beynəlxalq sərgidə iştirak edib

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom cari ilin 10-12 oktyabr tarixlərində Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilmiş "Türkmentel 2018" 11-ci Beynəlxalq Telekom və İT Sənayesi sərgisində iştirak edib.



AzerTelecom şirkətinin Baş İcraçı Direktoru Fuad Allahverdiyevin bildirdiyinə əsasən, şirkətin sərgidə iştirak məqsədi telekommunikasiya xidmətlərinin Türkmənistanda sərginin yerli və beynəlxalq iştirakçılarına təqdim edilməsi, texnoloji yeniliklərlə tanışlıq, eləcə də şirkətin beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi olub.

Sərgi zamanı Fuad Allahverdiyev şirkətin stendini ziyarət edən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Naziri Ramin Quluzadə, Rusiya Federasiyasının Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Kommunikasiyalar Naziri Konstantin Noskov, Türkmənistan Respublikasının Nazirlər Kabinetinin sədrinin Nəqliyyat və Rabitə məsələləri üzrə müavini Mammetxan Çakiev və Rabitə Naziri Bayramgeldi Ovezovvə digər qonaqlarla görüşərək AzerTelecom şirkəti, təqdim etdiyi xidmətlər və perspektiv layihələr barədə məlumat verib.

"Sərgi zamanı müxtəlif yerli və xarici şirkətlərin rəhbərləri və nümayəndələri ilə faydalı fikir mübadiləsi apardıq, gələcək əməkdaşlıq istiqamətlərini müzakirə etdik. "Türkmentel 2018" sərgisində iştirak Orta Asiyada telekommunikasiya və yüksək texnologiyalar sahələrinin hansı istiqamətdə inkişaf etdiyini anlamaq, yeni tərəfdaşlıq əlaqələrini qurmaq və potensial layihələrin müzakirəsi baxımından faydalı oldu" - deyə baş icraçı direktor qeyd edib. Sərgi çərçivəsində həmçinin Türkmənistanın müxtəlif telekanallarına və qəzetlərinə AzerTelecom şirkətinin xidmətlərivə sərgidə iştirakı barədə ətraflı müsahibələrverilib.

Sayca 11-ci olan "Türkmentel 2018" sərgisində Sony, Huawei, Samsung, Nokia, Space Systems International Monaco, Türksat, Airbus, Iskratel, Thales, Lenovo, Rostelecom, Polar Power, Gospel kimi dünyaca tanınmış şirkətlər xidmətlərini və məhsullarını təqdim ediblər.

# Dərsliklər niyə bayağılaşır?



**Zaman-zaman dərsliklərdəki nöqsanlarla bağlı məsələ gündəmə gələrək ekspert, ziyalılar tərəfindən bu sahədə olan problemlər qabardılır. Bəzi ekspertlər dərsliklərdə fonetik, leksik və qram-
matik normaların pozulması hallarının çoxluğundan, bəziləri dərsliklərin dilindən, bəziləri üslub səhvlərindən narazılıqlarını
bildirirlər. Lakin bir neçə gün bundan öncə Milli Məclisin plenar iclasında deputatlar tərəfindən dərsliklərlə bağlı gündəmə gətirilən problemlər mə-
sələyə yenidən qayıtmağa imkan yaradıb. Belə ki, Milli Məclisin üzvləri
dərsliklərdə elmi səhvlərlə yanaşı, orada yazılanların xüsusilə də aşağı si-
nif şagirdlərinin yaşına uyğun olmadıqlarını açıqlayaraq bunun yol veril-
məz olduğunu bildiriblər. Söylənən iradlara əsasən deyə bilərik ki, dərs-
liklərlə bağlı aşkarlanan əsas problemlər standartların siniflər üzrə bölgü-
sündə şagirdlərin yaş xüsusiyyətlərinin əsasən nəzərə alınmaması, stan-
dartlarda nəzərdə tutulmayan mövzu və anlayışlardan istifadə edilməsi,
terminlərin yerində düzgün işlədilməməsi, izahların natamamlığı, mətnlə-
rin seçilməsi, tapşırıqların forması və məzmunu ilə bağlıdır. Bəs görəsən
bu yanlışlıqlar məktəblilərə necə təsir edir və bunun qarşısını necə ala bi-
lərik?**

## "Ən ciddi qüsur nəşriyyatlara aiddir"

Təhsil üzrə ekspert Etibar Əliyev bildirib ki, ibtidai sinif dərsliklərini təhlil edərkən həqiqətən də



dərs vəsaitlərində nöqsanlara yol verildiyini görürük: "Burada söhbət təkcə müəllifdən deyil, metodist, psixoloq, müəllimlərdən gedir. Bu cür dərsliklər şübhəsiz ki, müzakirəyə çıxarılır. Amma təəssüf ki, təkliflər yetərli olmur, ortaya qüsurlar çıxır. Burada ən ciddi qüsur nəşriyyatlara aiddir. Çünki müəllifləri nəşriyyatlar seçirlər. İkinci məsuliyyət dərslikləri qiymətləndirmə şurasının üzərinə düşür. Ola bilsin ki, qiymətləndirmə meyarlarında çatışmazlıqlar var. Nəticədə istər müəllim, istər valideyn, istərsə də şagirdlərin özü dərsliklərdəki qüsurları aşkara çıxara bilirlər ".

## "Alternativ dərsliklərin yazılmasının vaxtı çatıb"

Ekspert hesab edir ki, bu problemlərin qarşısının alınması üçün alternativ dərsliklərin yazılmasının vaxtı çatıb: "Alternativ dərsliklər olmadığına görə, bütün müəllim heyəti fənlər üzrə bir dərsliyin üzərində dayanır. Bir dərsliyə bütün meyarlar əsasında yaxşı vəsait demək mümkün deyil. Bir çox hallarda dərsliklərdə məzmuna diqqət edilmədiyi üçün ciddi məzmun qüsurlarına rast gəlmək mümkündür. Elə dövr olub ki, əllərində səlahiyyəti olan insanlar bütün dərsliklərin yazılmasını öz üzərinə götürüblər. Belə olan halda, əlbəttə ki dərsliklərdəki qüsurların olması qaçılmaz olmaya bilməz".

## "Ali məktəblərin nəzdində dərslik laboratoriyaları yaradılmalıdır"

Təkliflə çıxış edən E. Əliyev söyləyib ki, problemin qarşısının alınması üçün ali məktəblərin nəzdində dərslik laboratoriyaları yaradılmalıdır: "Dərsliklər geniş müzakirə olunmalı, müəlliflər öz sahəsini bilən nüfuzlu şəxslər olmalıdır. Artıq dünyada dərsliklərdəki qüsurlardan qaçır. Bir çox ölkələrin yuxarı sinif dərsliklərinə baxdıqda onların daha çox tərcüməyə üstünlük verdiyini görmək olar. Burada heç bir qəbahət yoxdur. Əsas odur ki, bizim şagirdlərimiz, müəllimlər dərsliklərdən sərbəst şəkildə istifadə edə bilsinlər. Dərsliklər o qədər mürəkkəb yazılır ki, prinsiplər itir. Əslində isə sadədən mürəkkəbliyə doğru zəncirvarı prinsipləri əhatə etməlidir. Bu baxımdan düşünürəm ki, Təhsil İnstitutun özündə, eləcə də digər ali məktəblərdə dərsliklərin ciddi təhlil edilməsi üçün laboratoriyalar yaradılmalı və bura ciddi mütəxəssislər cəlb olunmalıdır".

## "Peşəkar müəllim dərsliklərdəki qüsurları aradan qaldıra bilər"

Başqa ölkələrin təcrübəsinə toxunan ekspert deyib ki, qonşu Türkiyədə dərsliklər bütün evlərdə geniş şəkildə müzakirə olunur: " Başqa ölkələrdə dərsliklər geniş şəkildə müzakirə olunur, mətnlərin uşaq üçün əhəmiyyəti psixologiyasına, yaşa təsiri təhlil olunur. Amma bizdə dərslik müəllifə tapşırılır, redaktor, korrektor yazıya baxdıqdan sonra çapa verib, sonradan məktəblərə paylayırlar. Bu düzgün deyil".

E.Əliyev əlavə edib ki, müəllimlərin peşəkarlığı dərsliklərdəki qüsurları aradan qaldıra bilər.

## "Dərsliklərin nəşrində nə elm adamı, nə də psixoloq iştirak etmir"

Əməkdar müəllim Almaz Həsrət söyləyib ki, son təlim proqramı olan kurikulumun tədrisinin reallaşması üçün yazılan dərsliklərdə çoxlu qüsurlara rast gəldiyimizi dana bilmərik:



"Hər bir fənninin tədrisinin bir dərsliklə keçirilməsi müəllimlərin üzərinə əlavə yük gətirib. Belə ki, müəllimlər dərsliklərdə baş verən yanlışlıqlara gəlib çıxanda onlar bilmir bunun düzəldilməsi ilə məşğul olsunlar, yoxsa mövzunu şagirdə ötürsünlər. Son 10-11 il ərzində yazılan dərsliklərdə bu qüsurlara daha çox rast gəlinir. Xüsusilə də mənə yaxın olan Biologiya dərsliklərində yanlışlara daha çox rast gəlinir. Mən deyərdim ki, bu dərslikləri yazanların əksəriyyətində səriştəsizlik olmaqla yanaşı, elmi biliklərdən uzaqdırlar. Çünki, bu dərsliklərin nəşrində nə elm adamı, nə də psixoloq iştirak etmir".

A.Həsrətin sözlərinə görə, dərsliklər çap olunarkən uşaqların yaş səviyyəsini nəzərə alan ekspert təyin olunmur: "Çox təəssüf ki, müzakirəyə tenderdə qalib olacaq dərsliklər çıxarılır. Bu doğru yanaşma deyil. Müzakirəyə müxtəlif komandalar tərəfindən yazılan ən azı iki dərslik çıxarılmalıdır. Bir dərsliyin nəyi müzakirə olunmalıdır? Burada axı alternativ dərslik yoxdur? Bu yanaşmalarda dəyişiklik edilməlidir".

## "Bəzi dərsliklərimizdə yeniliklər şagirdlərə ötürülmür"

Əməkdar müəllim söyləyib ki, dərsliklərin keyfiyyətli olması üçün peşəkar müəllim heyəti, kadrlar olmalıdır: "Bu dərslikləri yazanlar şagirdlərin yaş səviyyələrini yaxşı bilən, xüsusi mütəxəssislər, psixoloqlar, inklüziv təhsillə əlaqədar peşəkar insanlar olmalıdır. Bu gün məktəblərimizdə təhsil alan bütün uşaqların sağlamlığı eyni deyil. Dərsliklərin hazırlanmasında digər şagirdlər də nəzərə alınmalıdır. Biologiya dərsliklərində tamamilə yeni şəkillər, orqanlar meydana gəlib. Məlum olub ki, 40-50 il bundan mövcud olan orqanlar son texnoloji inkişaf nəticəsində ya yoxa çıxıb, ya da parçalanıb və ya başqası ilə əvəz olunub. Lakin dərsliklərimizdə bu yeniliklər şagirdlərə ötürülmür. Şagirdlərimiz bizim gələcəyə baxan gözlərimizdir. Biz gələcəyi görə biləcək 10 cümləni indidən dərk etməliyik. Beynəlxalq arenaya baxmalı, yeni elmi məzmun haqqında məlumatlı olmalıyıq. Yenilikləri ilk öncə özümüz bilməliyik. Dərslik yazanlar isə 10 qat daha artıq bilməlidirlər. Amma çox təəssüf ki, dərslik yazan müəlliflərin əksəriyyəti yeni, müasir, elmi biliklərdən dayazlığı var".

## "Bayağı, aşırıcı fikirlərdən tam şəkildə uzaq olmalıyıq"

İbtidai sinif dərsliklərində yaşa uyğun olmayan mətn və şeirlərə gəldikdə A. Həsrət qeyd edib ki, müəlliflər azərbaycanlı olduğumuzu unutmamalıdırlar: "Bizim şəxsi milli mənəvi dəyərlərimiz var. Dərsliklərdə biz tarixi köklərimizlə bağlı olan nüanslara toxunmalıyıq. Biz bayağı, aşırıcı fikirlərdən tam şəkildə uzaq olmalıyıq. Şagirdlərimizi o yöndə tərbiyə etməməliyik. Biz dərsliklərə şagirdlərimizin düzgün tərbiyə almasına,inkişafına kömək edəcək nüasnları gətirməliyik. Nə qədər ki, dərsliklərin yazılması ilə bağlı qurum yaradılmayıb bu qüsur və nöqsanlar olacaq".

## "Dərsliklərdə insanların fiziologiyası ilə bağlı materiallar yer almalıdır"

Azərbaycan Psixologiya və Psixoterapeya Assosiasiyasının layihə rəhbəri, psixoloq Nurlana İsmayılova deyib ki, dərsliklərdə in-



sanların fizologiyası ilə bağlı materiallar yer almalıdır: "Hətta baxça yaşlı uşaqlara məlumatlandırıcı formada tədris olunsa, bu, onların gələcəkdə üzləşəcəkləri problemin həllində yardımçı ola bilər. Təbii ki, insan fiziologiyası ilə bağlı informasiyalar uşaqlara onların qavrayacağı səviyyədə izah olunmalıdır. Hər bir uşaq öz orqanının hansı xüsusiyyətlərə malik olması onun sağlamlığı baxımından da önəmlidir. Təbii ki, bu erotik şəkildə deyil, elmi, tibbi tərəfdən aşılanmalıdır".

## "Yaşa uyğun olmayan materiallar məktəbliləri yanlış yola istiqamətləndirə bilər"

Psixoloq söyləyib ki, ibtidai sinif dərsliklərində yaşa uyğun olmayan materialların verilməsi məktəblilərin yalnış yola istiqamətləndirə bilər: "Azyaşlılara yaşına uyğun olmayan informasiyaların verilməsi, onların bu cür məsələlərə gələcəkdə normal münasibət göstərməsinə gətirib çıxara bilər. Artıq bu cür məsələlər onlar üçün adiləşir, özünə güvən azalır, böyüyə hörmət kimi amillər sıradan çıxır. Uşaqlara özünə güvən aşılanmalıdır. Uşaqlarda ən böyük problem elə budur. Onusuzda bu gün uşaqlarımız informasiya bolluğu mühitində böyüdükləri üçün yaşlarından əvvəl yetkinləşirlər. Əvvəl bu dövr uşaqlarda 14-15 yaşlarında başlayırdısa, indi 9-11 yaş dövrünü əhatə edir. Bu baxımdan məktəblərin həkim, psixoloq və müəllimləri ibtidai sinif uşaqlarına diqqət etməli, onlarla daim iş aparıb, məlumatlandırmalıdırlar".

**Nailə Məhərrəmova**

ARAŞDIRMA

# Xarici casus həbs edildi - Dövlət Təhlükəsizliyi Xidmətindən əməliyyat



Xarici ölkə vətəndaşı Hasanzada Bahram Nusrat oğlunun xarici xüsusi xidmət orqanı əməkdaşlarının tapşırığı əsasında Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinə qarşı casusluq, dövlət sirrinin ələ keçirilməsi, Azərbaycan Respublikası vətəndaşlarının casusluğa cəlb edilməsi istiqamətində cinayət əməllərinə dair əldə edilən məlumatlar yoxlanılaraq təsdiqini tapıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, DTX və Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilmiş birgə əməliyyat tədbirləri nəticəsində Bahram Hasanzada dövlət sərhədini qanunsuz keçərək ölkə ərazisinə daxil olarkən saxlanılıb. O, Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 276-cı (casusluq) və 318.1-ci (dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Həmçinin müəyyən edilib ki, xarici ölkə vətəndaşı Bahram Hasanzada xarici xüsusi xidmət orqanı əməkdaşlarının tapşırığı əsasında Azərbaycan silahlı qüvvələrində xidmət edən hərbi qulluqçular, ölkə ərazisində yerləşən hərbi-strateji obyektlər, hərbi texnika və silah-sursat, xarici ölkələrlə hərbi sahədə əlaqələr, eləcə də Azərbaycanın dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti ilə bağlı sair kəşfiyyat məlumatlarını toplamış, bu məqsədlə uzunmüddətli münasibət qurduğu Azərbaycan Respublikası vətəndaşlarının maddi maraq müqabilində xarici xüsusi xidmət orqanı əməkdaşlarının əlaqəsinə cəlb edilməsini təşkil edib. Hazırda araşdırmalar davam edir.

# "Paşinyanın yeganə xilas yolu Azərbaycanla sülhə nail olmaqdır"



Ermənistanın baş naziri Nikol Paşinyanın istefaya getməsi, dekabr ayında parlament seçkilərini keçirmək, hakimiyyətin nümayəndələrini parlamentdən təmizləmək və rəhbərliyi ələ almaqdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Asim Mollazadə deyib. O bildirib ki, bu istefa Paşinyana Koçaryan və Sarkisyanın adamlarını parlamentdən çıxarmaq və öz hökumətini real formalaşdırmaq imkanı verəcək: " Bu baxımdan Paşinyanın istefasını hesablanmış addım hesab etmək olar. Paşinyanın bu addımı əslində istefa adlandırmaq da düzgün deyil. Çünki, o hazırda bu addımı yeni parlament seçkilərini tezləşdirərək, köhnə parlamenti dağıtmış olur".

Sarkisyan və Koçaryan qüvvələrinin məhdud imkanlara malik olduğunu deyən A. Mollazadə seçki ərəfəsində onlar tərəfindən hər hansı etirazların gözlənilmədiyini dilə gətirib: " İrəvanda mer seçkiləri onu göstərdi ki, köhnə hakimiyyətin adamları heç bir müqavimət göstərə bilməzlər. Əks halda, Paşinyanın adamı mer seçilməzdi".

Deputat qeyd edib ki, hazırda Ermənistanda keçmiş hərbi cinayətkarları dəstəkləyən qüvvələr küncə sıxıldığından onlar heç bir müqavimət göstərə bilmirlər. Dağlıq Qarabağ probleminin həllinə gəlincə A. Mollazadə vurğulayıb ki, Ermənistanda Paşinyan yeni hakimiyyətini gücləndirməyənə qədər problemin həlli ilə bağlı ciddi danışıqlar aparılmayacaq: " Yalnız seçkilərdən, yeni hökumətin formalaşmasından sonra biz Ermənistanın danışıqlara başlayacağını gözləyə bilərik. Hələlik onların fikri yalnız öz daxili məsələlərinə qarışıb". Deputat əlavə edib ki, Paşinyanın Ermənistanın müstəqilliyini bərpa etmək, normal dövlətə çevirmək üçün yeganə xilas yolu Azərbaycanla sülhə nail olmaqdır: "Paşinyan bu yolu seçməsə Ermənistan dövləti tam məhv ola bilər. Onsuzda Ermənistan hərbi bazaya bənzəyən bir ərazidir. Lakin Azərbaycanın ərazilərini işğaldan azad etmək, sülhə nail olmaqla Paşinyan Ermənistanı xilas edə bilər".

# "Son 15 ildə müstəqil Azərbaycan heyrətamiz inkişaf və yüksəliş yolu keçib" mövzusunda tədbir təşkil olunub

***Oktyabrın 18-də Dövlət Təhlükəsizliyi Xidmətində "Son 15 ildə müstəqil Azərbaycan heyrətamiz inkişaf və yüksəliş yolu keçib" mövzusunda tədbir təşkil olunub. Tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev, Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova, DTX-nin əməkdaşları və Azərbaycan təhlükəsizlik orqanlarının veteranları iştirak ediblər.***



DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dövlət himni səsləndirilib.

General-polkovnik Mədət Quliyev çıxış edərək bildirib ki, xalqımızın əsrlər boyu arzusunda olduğu müstəqil dövləti öz dühası və yorulmaz səyləri ilə qurub, qoruyub və gələcək nəsillərə əmanət etmiş ümummilli lider Heydər Əliyevin misilsiz dövlətçilik xətti hazırkı yeniləşmə və müasirləşmə mərhələsində Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirilir.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi qeyd edib ki, dövlətimizin başçısının böyük uzaqgörənliklə həyata keçirdiyi milli inkişaf strategiyası sayəsində regionun lider dövlətinə çevrilmiş Azərbaycan bu gün xariqələr yaradır, yeni tərəqqi zirvələrini inamla fəth edir. Ulu Öndərin şah əsəri olan müasir Azərbaycanın son 15 ildə bütün sahələrdə əldə etdiyi nailiyyətlər və zəfərlər bir daha sübut edir ki, dövlətin sükanı etibarlı və qüdrətli əllərdədir. Alternativi olmayan bu qətiyyətli siyasət nəticəsində dövlət müstəqilliyimiz, hərbi potensialımız, xalq-iqtidar vəhdəti və milli həmrəylik günbəgün daha da möhkəmlənir, ölkəmizin heyrətamiz inkişafı və qazandığı möhtəşəm nailiyyətlər hər bir vətənpərvər azərbaycanlı tərəfindən sonsuz rəğbət və iftixar hissi ilə qarşılanır.

Milli Məclis sədrinin müavini Bahar Muradova Dövlət Təhlükəsizliyi Xidmətində belə bir əlamətdar tarixə həsr olunan tədbirə çıxış etməkdən qürür duyduğunu bildirərək, ulu öndər Heydər Əliyevin şanlı peşəkarlıq məktəbinin davamçılarına həyatda və xidmətdə müvəffəqiyyətlər arzulayıb.

Bahar Muradova bildirib ki, hakimiyyət sükanının arxasında durduğu ilk gündən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağını vəd edən və bu 15 il ərzində sözlə əməlin vəhdət nümunəsini ortaya qoyan dövlətimizin başçısı İlham Əliyev bütün səy və bacarığını respublikamızın davamlı inkişafına, iqtisadi və hərbi qüdrətinin artmasına, mədəni və elmi cəhətdən tərəqqisinə sərf etməkdədir. Bu gün Prezident İlham Əliyev Ulu Öndərin şah əsəri olan, müstəqilliyini etibarlı şəkildə qoruyub saxlayan, azad və firavan bir dövlətin lideri olaraq ölkə vətəndaşlarının rifahı və xoşbəxt gələcəyi, ləyaqətli həyat tərzi naminə göstərilən xidmətlərin müəllifi kimi tarixi missiyanın daşıyıcısıdır. Qeyd edək ki, bu mövzuda tədbirlər Dövlət Təhlükəsizliyi Xidmətinin bütün struktur bölmələrində keçirilib.

# "Dünya ictimaiyyəti Ermənistanı işğalçı ölkə kimi tanıyıb"

***"Prezident İlham Əliyevin qəti və prinsipial siyasətinin nəticəsidir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəkləyir və bu mövqe ardıcıl surətdə daha da güclənir. Məhz bu siyasətin nəticəsidir ki, bu gün dünya ictimaiyyəti Ermənistanı işğalçı ölkə kimi tanıyıb". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.***



"Əgər bir qədər bundan əvvəlki dövrə nəzər yetirsək görərik ki, o zaman Azərbaycan heç də dünya tərəfindən geniş şəkildə tanınan ölkə deyildi. Amma uzun illər Azərbaycanın əldə etdiyi uğurlar, beynəlxalq arenada qazandığı nailiyyətlər və Azərbaycanın bir müstəqil ölkə kimi dünya ictimaiyyətinə təqdim olunması və müstəqil siyasətin yeridilməsi təbii ki, dünya ictimaiyyəti tərəfindən də ölkəmizin haqq səsini eşitməyinə müvəffəq olmuşdur. Bu gün Azərbaycanın beynəlxalq diplomatiyasının uğurudur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolu ancaq Azərbaycan torpaqlarının işğaldan azad edilməsində, ərazi bütövlüyünün bərpa olunmasında görünür. Bütün bu uğurlar cənab Prezidentin apardığı düzgün və düşünülmüş beynəlxalq siyasətin göstəricisidir və Azərbaycanın artan beynəlxalq nüfuzunun nəticəsidir"-deyə, A.Badamov fikirlərini tamamlayıb.

# Səhiyyə naziri Göygöldə vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər. Növbəti belə qəbul oktyabrın 18-də Göygöl Mərkəzi Rayon Xəstəxanasında keçirilib. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev Göygöl, Daşkəsən, Samux rayonlarından və Gəncə şəhərindən olan 18 vətəndaşın sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib. Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

# ABŞ səfirinin etirafı Ermənistanın ikiüzlü siyasətinin ifşasıdır

*Riçard Millz Ermənistanın təcavüzkar, işğalçı siyasət apardığını bütün dünyaya bəyan etdi və açıb göstərdi*

***ABŞ-ın Ermənistandakı səfiri Riçard Millzin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı açıqlaması işğalçı ölkədə təəccüblə qarşılanıb. Səfirin "işğal olunmuş ərazilərin bir hissəsinin Azərbaycana qaytarılması reallaşdırılmadan münaqişənin həllinə nail olmaq mümkün deyil" fikri nəzərəçarpacaq dərəcədə rezonans doğurub. Əslində, ABŞ səfirinin belə bir fikir səsləndirməsi Qarabağın, birmənalı şəkildə Azərbaycana məxsus olmasını, eyni zamanda, Azərbaycana məxsus həmin ərazilərin ermənilər tərəfindən işğala məruz qalmasını təsdiqləməsi və bunu etiraf etməsidir.***

Səfirin belə bir fikir səsləndirməsi işğalçı ölkədə müzakirələrə səbəb olub və işğalçıların bundan narahatlığı da başadüşüləndir. Çünki bu fikirlərin təkcə Millz deyil, Amerikaya aid olduğunun fərqindədirlər. Doğrudur, ABŞ əvvəldən də, çox yaxşı bilirdi ki, bu torpaqlar Azərbaycana məxsusdur və erməni işğalına məruz qalıb. Lakin səfirin bu şəkildə açıq fikir səsləndirməsi ermənilər üçün gözlənilməz oldu. Ona görə gözlənilməz oldu ki, ermənilər ABŞ tərəfdən az qala arxayın idilər və heç zaman onların əleyhinə mövqe sərgiləyəcəyini ağıllarına belə gətirmirdilər. Ağıllarına belə gətirmirdilər ki, ABŞ Ermənistan hakimiyyətinin təmsilçiləri, hətta qondarma Artsaxın nümayəndələri ilə pərdəarxası oyunlar apardıqdan sonra belə bir şəkildə etiraf edə bilər. Ancaq nəzərə almaq lazım idi ki, münaqişənin mahiyyətini, torpaqların Azərbaycana məxsus olduğunu, işğalın isə Ermənistan tərəfindən edildiyini əvvəlcədən bilə-bilə ABŞ bunu indiyə qədər etiraf etmirdisə, deməli, hiyləgər, ikibaşlı oyun oynayır və istənilən anda öz mövqeyini dəyişə də bilər.

## Etiraf olundu ki, torpaqlar geri qaytarılmazsa, münaqişənin həlli mümkünsüzdür

ABŞ bu vaxta qədər bildiyi, amma etiraf etmədiyi həqiqətlərin indi səfirin dilindən səsləndirilməsi, əslində, Ermənistanın da apardığı ikiüzlü siyasətin ifşası anlamına gəlir. Çünki Millz bu fikirlərlə Ermənistanın təcavüzkar, işğalçı siyasət apardığını bütün dünyaya bəyan etdi və açıb göstərdi. Açıb göstərdi ki, həqiqətən də, torpaqlar Azərbaycana məxsusdur və ermənilər tərəfindən işğl olunub. Bir də bəyan etdi ki, ermənilər bu torpaqların sahiblərinə qaytarılması barədə heç düşünmürlər də və belə olan halda, yəni torpaqlar geri qaytarılmazsa, münqişənin həlli tamamilə mümkünsüzdür. Azərbaycanın əzəli və əbədi torpaqları olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal edilməsini




rəsmi Vaşinqton bilə-bilə, bu vaxta qədər bunu dilə gətirmir və birdən-birə bunu ABŞ səfiri səsləndirirsə, hətta erməni cəmiyyəti bu münaqişənin həllini düşünmür deyirsə, o zaman Millzin təmsil etdiyi həmsədr ölkə bu vaxta qədər hansı missiya və nə ilə məşğul olub? Əgər həmsədr ölkə nə az - nə çox 25 ildən çox müddətdə münaqişəni həll etmək bir tərəfə, işğalçı dövlətə mənsub cəmiyyəti bu münaqişə ilə bağlı düşünməyə belə sövq edə bilməyibsə, hansı fəaliyyətdən danışmağa dəyər? Doğrudur, səfir Riçard Millz Azərbaycan həqiqətlərini söyləyib, işğalçı cəmiyyətin haqsız və günahkar olduğunu ifşa edib. Amma bu səfirdən soruşmaq yerinə düşərdi ki, bu zamana, bu məqama qədər niyə həmin fikirlər söylənilmirdi və Ermənistanda torpaqları qaytarmaqla bağlı düşüncə yoxdursa, bu, kimin günahıdır? Bu düşüncəni formalaşdırmağa mükəlləf olan həmsədr ölkələr deyildimi və təmsil etdiyi dövlət bu çağa qədər hansı missiya üzərində işləyib? Digər bir maraqlı məqam da diqqəti cəlb edir və görəsən bu vaxta qədər səsləndirmədiyi bəyanatla indi niyə çıxış edir? Belə bir bəyanat hardan qaynaqlandı və bunu labüd edən nə oldu? Təbii ki, bu vaxta qədər erməni lobbisinin, məhz ABŞ-dakı erməni diasporunun təsirinə düşənlərin birdən-birə belə bir mövqe sərgiləməsi bir çox suallar doğurur. Sözsüz ki, Amerika kimi dünyanın fövqəldövlətinin mövqeyində olan dəyişiklik heç də təsadüfi deyil. Son zamanlar münaqişənin həlli istiqamətində aparılan danışıqlar prosesində rəsmi Moskvanın fəallığı, görünür, Vaşinqtonun diqqətini cəlb edib. Onsuz da, ölkəmizin haqlı tərəf kimi ədalətli mövqeyi sonsuza qədər inkar edilə bilməz və bu münaqişənin bir sonu, yekunda hüquqi qiyməti də olacaq.

## ABŞ-ı maraqlandıran status və bölgədə mövqeyini təmin etməkdir

Təbii ki, ABŞ səfiri özü də yaxşı başa düşür ki, analoji sual ona da ünvanlana bilər və bu qəfil bəyanat cəmiyyətin diqqətini çəkəcək. Niyə onun bu bəyanatı indi verməsinə, daha dəqiq desək, mövqeyini tamamilə dəyişməsinə, sözsüz ki, cəmiyyətdə sual doğuran məqamlar olduğunu çox gözəl başa düşən və buna aydınlıq gətirməyə çalışan Riçard Millz, əvvəllər ermənilərin əraziləri işğal etməsində məqsədlərinin torpaqları qaytarmaq əvəzinə, Dağlıq Qarabağın statusu taktikasını seçəcəklərini düşündüyünü deyir və qeyd edir ki, ermənilər heç bunu istəmirlər. Bir sözlə, Millz ermənilərin onun bildiyi, təxmin etdiyi ssenaridən kənara çıxması səbəbindən, belə bir bəyanat verməli olub. Səfirin sözündən belə çıxır ki, təmsil etdiyi dövlətin mövqeyi əvvəlcədən bəlli olub və ABŞ gözləyirdi ki, ermənilər torpaqları işğal etsin, sonra da torpaqların qaytarılması müqabilində, guya ki, almalı olacağı statusu da Amerika tanısın. R.Millz az qala bu çirkin oyunu rəsmən etiraf edir və ABŞ-ın ikiüzlü siyasəti ortaya çıxır. Bəlli olur ki, ABŞ-ı maraqlandıran yalnız status məsələsidir ki, bununla da, xidmətləri müqabilində bölgədə mövqeyini təmin etmək niyyəti güdülür.

## Heç bir dövlət, heç bir qurum Azərbaycana şərt qoya bilməz və Dağlıq Qarabağa status verilməsi ağlasığan deyil

Doğrudur, Ermənistanın torpaqlarımızı qaytarması müqabilində nə ABŞ, nə də heç bir dövlət və heç bir qurum Azərbaycanın qarşısında şərt qoya bilməz. Buna kimsənin nə hüququ, nə də mənəvi ixtiyarı çatmaz. Amma ABŞ yəqin ki, bu vaxta qədər güman edib ki, Azərbaycan torpaqların qaytarılması müqabilində, hər bir şərtlə, istənilən statusun verilməsi ilə razılaşacaq. Lakin əsl həqiqət odur ki, bu gün ölkəmizin siyasi, iqtisadi və hərbi sahədə inkişafı, əldə etdiyi uğurlar, ələlxüsus, Rusiya və Türkiyə kimi əməkdaşlıq etdiyi fövqəldövlətlərlə əlaqələrinin artması, həmin dövlətlərin ölkəmizin mövqelərini dəstəkləməsi ABŞ-ın diqqətindən yayınmayıb. Diqqətindən yayınmayıb ki, artıq Azərbaycan istənilən halda, hətta hərbi yolla da torpaqlarını geri qaytarmaq iqtidarındadır və heç bir şərtlə razılaşmağa ehtiyac duymur. Təkcə ABŞ yox, bütün dünya dövlətləri çox yaxşı başa düşürlər ki, ölkəmizin potensial imkanları işğalçı dövlətin imkanlarından müqaisəolunmaz dərəcədə artıqdır və onsuz da, qarşı tərəf bununla hesablaşmaq məcburiyyətindədir. İndi heç bir dünya ölkəsi və beynəlxalq təşkilat, heç bir güc, qüvvə üçün, eləcə də, ABŞ səfiri Riçard Millz üçün sirr deyil ki, Azərbaycan artıq öz həqiqətlərini, hüquqlarını tələb etmək, öz şərtlərini diktə etmək əzmindədir və ölkəmizin Dağlıq Qarabağa status verilməsi kimi hər hansı şərtlə razılaşacağı ağlasığan deyil. Məhz bu səbəbdən, bir vaxtlar erməni lobbisinin, erməni diasporunun maraqlarını müdafiə edən dövlətlər, qurumlar belə, indi bu mövqeyin əksini nümayiş etdirmək məcburiyyətindədirlər. Bütün bunları şərtləndirən isə Azərbaycanın siyasi, iqtisadi, hərbi sahədə uğurları, nailiyyətləri və ölkədə aparılan məqsədyönlü siyasətdir.

**İnam HACIYEV**

---

# Qətərin "Əl-Şərq" və "Raya" qəzetlərində Azərbaycanın Dövlət Müstəqilliyi Günü ilə bağlı məqalələr dərc olunub


الشرق
31 اتفاقية تعزز علاقاتنا مع قطر

Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə ölkəmizin Qətər Dövlətindəki səfirliyinin təşəbbüsü ilə Qətərin ərəbdilli "Əl-Şərq" və "Raya" qəzetlərində məqalələr dərc edilib. Bu barədə AZƏRTAC-a səfirlikdən məlumat verilib. Məqalələrdə Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılovun mətbuat açıqlamasına istinad edilərək 1991-ci il oktyabrın 18-də Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunduğu xatırlanıb və yeni dövlətin 1918-1920-ci illərdə fəaliyyət göstərmiş, müsəlman Şərqinin ilk parlamentli respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi elan olunduğu qeyd edilib. Yetmiş ildən sonra müstəqilliyini bərpa edən Azərbaycanın bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyata malik dövlətlərindən olduğu vurğulanıb.

Yazılarda Azərbaycan-Qətər münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivlərinə də geniş yer verilib. Dövlət başçılarının qarşılıqlı səfərlərinin və iki ölkə arasında imzalanmış 31 sənədin ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verdiyi qeyd edilərək, ölkələrarası ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olunub. Bundan başqa, ölkəmizdəki mövcud əlverişli investisiya mühiti və turizm imkanlarından danışılıb.

# "MİR 24" telekanalı: Azərbaycanda bol üzüm məhsulu yığılıb




Qızmar yay güneşi Azərbaycanın qərb bölgəsində bol üzüm məhsulu yetişməsinə səbəb olub. AZƏRTAC xəbər verir ki, "MİR 24" televiziya kanalının bu sözlərlə başlayan reportajında qeyd olunub ki, Göygöl rayonunun fermerləri bu mövsümdə min tona yaxın üzüm yığmağı nəzərdə tuturlar. Giləleri əzməmək üçün üzüm yığımı cəldlik və diqqət tələb edir. Bol məhsul yığmaq üçün üzüm bağlarında iş sübh çağından axşamadək davam edir. "Bol məhsulumuz var. Üzümün hər giləsi şirəlidir. Gün ərzində 150 vedrə məhsul toplayırıq", -deyə üzümçü Gülyanaq Bəşirli telekanala müsahibəsində bildirib.

Hər hektardan 50 ton məhsul yığılır. Fransız üzüm növü özünəməxsus rəngi ilə seçilir. Azərbaycanın iqlim şəraitinə uyğunlaşsa da, bu növ xüsusi becərmə üsulu tələb edir. Fermerlərin sözlərinə görə, adi suvarma və budama ilə kifayətlənmək olmaz. "Hər bir kola diqqətlə qulluq edirik və gübrə veririk. Qışda şaxtadan, yayda həşəratlardan qoruyuruq. Payızda yaxşı yetişmiş məhsul alırıq, yerli növləri isə artıq yığıb qurtarmışıq", - deyə üzümçülərin briqadiri qeyd edir. Bol məhsul şərabçıları da sevindirir. Toplanan salxımlar dərhal onlara göndərilir. Doğrayıcı maşınlar üzüm gilələrinin salxımdan ayırır və şirəsini çəkir. Sonra onu sisternlərdə saxlayırlar. Zavodun baş şərabçısı Rasim Ömərov əlavə edir: "Biz müasir aparatlardan istifadə edirik. Çünki xammal növləri xüsusi yanaşma tələb edir. Bu il istehsal etdiyimiz şərabın nəfis dadı var". Reportajda qeyd olunur ki, təkcə Göygöl rayonunda artıq 500 ton üzüm yığılıb və daha bu qədər də yığılması nəzərdə tutulur. Ümumilikdə, Azərbaycanın 12 rayonunda 16 min 500 hektarlıq üzüm bağları var.

# Kerç kollecinə hücum nəticəsində ölənlərin sayı 21 nəfərə çatıb

Krımın şərqində yerləşən Kerç şəhərindəki politexnik kollecində baş verən partlayış və gülləbaran nəticəsində həlak olanların sayı 21 nəfərə çatıb.

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, oktyabrın 18-də yaralılardan biri xəstəxanada ölüb. Hadisə zamanı yaralanan 50 nəfər xəstəxanalarda müalicə olunur. Onlardan 10-nun vəziyyəti ağır qiymətləndirilir.

# YAP Gəncə şəhər təşkilatında Dövlət Müstəqilliyi Günü qeyd edilib



***Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümü münasibətilə Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının qərargahında bayram tədbiri keçirilib. Əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

YAP Gəncə şəhər təşkilatının aparat rəhbəri Tural Verdiyev tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edib, müstəqilliyin bərpasından sonra Azərbaycanın keçdiyi inkişaf yolundan, qazandığı uğurlardan danışıb. Bildirib ki, bu gün Azərbaycan dünya dövlətləri sırasında özünə layiqli yer tutub. Bu inkişaf və tərəqqi Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış Müstəqillik Gününün bəhrələridir. "Müstəqilliyimiz dönməzdir, əbədidir" deyən Ulu Öndər Heydər Əliyevin Azərbaycanın qüdrətli dövlətə çevrilməsinə yönəlmiş müdrik siyasəti bu gün Prezident Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan gündən-günə daha da güclənir və qüdrətlənir.

YAP Gəncə şəhər təşkilatının İdeologiya şöbəsinin müdiri Hüseyn Budaqov Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının ildönümünün hər bir azərbaycanlının böyük fəxrlə qeyd etdiyi tarixi hadisə olduğunu bildirib.

Ümummilli Lider Heydər Əliyevin əvəzsiz tarixi xidmətlərini xatırladan Hüseyn Budaqov vurğulayıb ki, müstəqilliyimizin ilk illərində xalqımız dünyaya bəxş etdiyi dahi insan, böyük vətənpərvər şəxsiyyət Heydər Əliyev kimi görkəmli bir siyasətçinin siyasi hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və buna nail oldu.

ADAU-nun İctimai elmlər və multikulturalizm kafedrasının müdiri, professor Azad Bayramov, GDU-nun Ümumi tarix kafedrasının dosenti Hüseyn Bəxtiyarov, YAP Gəncə şəhər təşkilatının Tibb Kolleci ərazi ilk partiya təşkilatının sədri Kifayət Fəttahi və başqaları çıxış edərək, xalqımızın ən böyük nailiyyətlərindən biri olan dövlət müstəqilliyinin əldə edilməsinin, əbədiliyi və dönməzliyinin Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olduğunu qeyd edib, Prezident Cənab İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində, Müstəqil Azərbaycan Respublikasının möhkəm əsaslar üzərində yeni inkişaf xətti tutduğunu söyləyiblər.

Tədbirdə xalq artisti Məmmədəli Balayevin söylədiyi "Yaşa, Cənab Prezident!" şeiri gurultulu alqışlarla qarşılanıb.

**Rövşən RƏSULOV**

# İsmayıllıda Dövlət Müstəqilliyi Günü qeyd olunub

***Dünən Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatı İsmayıllı rayon icra hakimiyyəti ilə birgə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpasının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirib.***





Tədbiri YAP İsmayıllı rayon təşkilatının şura üzvü Pərviz Ağayev açaraq, tədbir iştirakçılarını Müstəqillik Günü münasibəti ilə təbrik edərək, tarixi dövrə nəzər saldı: "Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu".



Tədbirdə YAP İsmayıllı rayon təşkilatının idarə heyətinin üzvü, rayon Təhsil şöbəsinin müdiri Rasim Orucov, İsmayıllı rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin müdiri Könül Baxışova, ziyalılar adından Rizvan Orucov çıxış edərək, Azərbaycanın dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi töhfələrdən ətraflı danışmış, 27 illik müstəqillik dövründə ölkəmizin daxili və xarici siyasətində qazanılmış uğurlardan bəhs etmiş, bütün bu uğurların xoşbəxt sabaha böyük inam yaratdığını, dövlət müstəqilliyimizin Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da inkişaf edib möhkəmlənəcəyinə, onun sarsılmaz və daimi olacağına qəti şəkildə inandıqlarını vurğulamışlar.

Tədbirdə çıxış edən İsmayıllı rayon icra hakimiyyətinin başçısı Mirdamət Sadıqov müstəqilliyimizin əldə edilməsi, möhkəmləndirilməsi və onun əbədi edilməsi üçün Ümummilli Lider Heydər Əliyev və Onun layiqli davamçısı Azərbaycan Prezidenti Cənab İlham Əliyevin xidmətlərindən danışmış, bayram münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir.

Tədbir konsert proqramı ilə davam etdirilmişdir.

**ZÜMRÜD**

# YAP Pirallahı rayon təşkilatında MKTB ərazi ilk partiya təşkilatına sədr seçkisi keçirilib

***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının Pirallahı rayon MKTB ərazi ilk partiya təşkilatında iclas keçirilib. İclasın gündəliyində duran əsas məsələ Pirallahı rayon MKTB ərazi ilk partiya təşkilatında yeni sədrin seçilməsi idi. İclası giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan Partiyası fəaliyyətdə olduğu müddətdə milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin başlıca təminatçısı qismində çıxış edərək, ümummilli ideyaları özündə ehtiva edən səmərəli addımları ilə xalqın dərin inamını qazanıb.***

Hikmət Şikarov, həmçinin bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması müstəqil Azərbaycanın, xalqımızın həyatında tarixi bir dönüş, intibah dövrü kimi yadda qalıb: "Məhz bu inkişafın nəticəsidir ki, Bakı şəhərinin yeni yaranmış Pirallahı rayonunda Yeni Azərbaycan Partiyasının Pirallahı rayon təşkilatının yaranması zərurəti meydana çıxdı. 17 iyul 2013-cü il tarixində Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının təsis konfransı keçirildi. Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı yarandığı gündən rayonumuzun inkişafında və ictimai həyatında mühüm rol oynamışdır. Bu gün YAP Pirallahı rayon təşkilatının 5 mindən artıq üzvü var ki, bu da cəmi 20 min əhalisi olan rayonumuzda respublika üzrə ən yüksək faiz göstəricisidir".

YAP Pirallahı rayon təşkilatının sədri, həmçinin bildirib ki, 2018-ci ildə YAP Pirallahı rayon təşkilatı bir çox uğurlara imza atıb. Belə ki, rayon təşkilatının fəaliyyətində, xüsusilə fərqlənən ərazi ilk partiya təşkilatları vardır: "Pirallahı rayon MKTB ərazi ilk partiya təşkilatı bu baxımdan, ən nümunəvi ərazi ilk partiya təşkilatıdır. Rayonumuzda aparılan abadlıq-quruculuq işləri ilə yanaşı keçirilən hər bir tədbirdə aktivliyi ilə seçilən Pirallahı rayon MKTB ərazi ilk partiya təşkilatı həm də partiyaya yeni üzvlərin cəlb olunmasında ən fəal ərazi ilk partiya təşkilatlarından biridir.



Son 2 ayda partiya sıralarına 87 nəfər yeni üzvün qəbulu Pirallahı rayon MKTB-də partiya ilə bağlı düzgün təbliğatın bariz nümunəsidir".

Çıxışlardan sonra YAP Pirallahı rayon təşkilatı Pirallahı rayon MKTB ərazi ilk partiya təşkilatının idarə heyətinin üzvləri - Pirallahı rayon MKTB-nın rəis müavini Cəlil Mirzəyev və hüquqşünas, kadrlar üzrə mütəxəssis Aysel Qəribli Manaf Manafovun Pirallahı rayon MKTB ərazi ilk partiya təşkilatı sədrliyinə namizədliyini irəli sürdülər. YAP Pirallahı rayon təşkilatı Pirallahı rayon MKTB ərazi ilk partiya təşkilatının idarə heyətinin üzvləri və partiya fəallarının yekdil qərarı ilə Manaf Manafov Pirallahı rayon MKTB ərazi ilk partiya təşkilatının sədri seçildi. İclasın sonunda partiya sıralarına yeni qəbul edilmiş şəxslərə partiyaya üzvlük vəsiqələri təqdim olundu.



**Rövşən NURƏDDİNOĞLU**

# Azərbaycan teatrı dövlət qayğısı ilə əhatə olunub

## *Teatrın inkişafında xidmətləri olan sənətkarlar dövlət başçısının Sərəncamı ilə fəxri adlara layiq görülmələrini böyük məmnunluqla qarşılayırlar*



***İncəsənətin bir növü olan teatr hiss, fikir və emosiyaların tamaşaçılara bir qrup aktyor tərəfindən ötürülən estetik mahiyyət daşıyan bir sənətdir. Bu sənətin kifayət qədər fədailəri olub, bu gün də var. Mürəkkəb inkişaf yolu keçmiş Azərbaycan teatrının repertuarı genişlənib və müxtəlif zövqlü tamaşaçıların tələbatına uyğun əsərlər səhnələşdirilir.***

Azərbaycanda fəaliyyət göstərən Akademik Milli Dram Teatrı, Musiqili Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Rus Dram Teatrı və s. repertuar baxımından zəngin və istedadlı sənət xadimlərinin çalışdığı məkandır. Bu gün dövlətin qayğısı ilə əhatə olunan Azərbaycan teatrları öz inkişaf dövrünü yaşayır. Fərqli repertuarı ilə tamaşaçıların marağında olan sənət ocaqları mütərəqqi ideyalı səhnə əsərləri ilə gənc nəslin bədii-estetik zövqünün formalaşmasında və yüksək əxlaqi-mənəvi dəyərlərin aşılanmasında mühüm rol oynayırlar. Bu teatrlar sırasında Mingəçevir Dövlət Dram Teatrı, Sumqayıt Dövlət Dram Teatrı da Azərbaycanın teatr tarixində layiqli yer tutur. Hər zaman dövlətimiz tərəfindən sənət məbədlərində, bu ocaqlarda çalışan və yaradan sənətkarların əməyinə diqqət göstərilir.

Azərbaycan Prezidenti İlham Əliyevin 16 oktyabr tarixli Sərəncamı ilə Sumqayıt Dövlət Dram Teatrının, eləcə də, Mingəçevir Dövlət Dram Teatrı əməkdaşları Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə əməkdar artisti, "Tərəqqi" medalı, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunublar. Fəxri adlara layiq görülmüş Sumqayıt Dövlət Dram Teatrının bir neçə yaradıcı şəxsinin sevincinə şərik olub, təəssüratlarını öyrəndik.

### ARİF MÜZƏFFƏROV: "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏYİM MƏNİ QÜRURLANDIRDI"

Teatrın rəssamı Arif Müzəffərov bildirdi ki, Cənab Prezidentin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb: "1968-ci ildə yaradılan Sumqayıt Dövlət Dram Teatrı yarım əsrlik bir dövrdə inkişaf yolu keçib. Teatrın səhnəsində klassik və müasir Azərbaycan, rus və xarici ölkə dramaturqlarının əsərləri uğurla oynanılıb. Böyük sənətkarların - xalq artistləri Rza Əfqanlının və Barat Şəkinskayanın çalışdığı teatr ənənləri bu teatrımızda davam edir".

A.Müzəffərov teatrımıza dövlətimiz tərəfindən hər zaman diqqət göstərildiyini diqqətə çatdırdı. Qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidentinin məlum sərəncamları ilə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə teatrın bir neçə əməkdaşı xalq artisti, əməkdar artist, əməkdar mədəniyyət işçisi fəxri adlarına layiq görülüblər: "Bu gün isə, teatr kollektivinə ayrılan diqqətin bariz nümunəsi olaraq, bir neçə əməkdaşımız dövlət başçısının 16 oktyabr 2018-ci il tarixli Sərəncamı ilə fəxri adlara layiq göülmüşdür. "Tərəqqi" medalı ilə təltif edilməyim məni qürurlandırdı. Ulu Öndər Heydər Əliyevin milli mədəniyyətə xüsusi diqqət və sevgi ilə yanaşması yaxın tariximizə qızıl hərflərlə həkk olunub. Bu gün də o sevgi və qayğı Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əməyimizə verilən qiymətə görə Prezidentimizə minnətdaram".

### AKİF MİRZƏYEV: "BUNDAN SONRA DA HƏR ZAMAN MİLLİ TEATRIN TƏŞƏKKÜLÜNDƏ SƏNƏT YANĞISI VƏ COŞQU İLƏ ÇALIŞACAĞAM"

Teartın aktyoru Akif Mirzəyev bildirdi ki, Sumqayıt Dövlət Dram Teatrının 50 illiyi ilə bağlı Azərbaycan Prezidentinin imzaladığı Sərəncam kollektivimizin hədsiz sevincinə səbəb oldu. Hər birimiz Prezident İlham Əliyevin diqqət və qayğısından məmnunuq: "Mənim də "Tərəqqi" medalına layiq görülməyim qəlbimi fərəh hissi ilə doldurur. Dövlət başçımıza dərin minnətdarlığımı bildirirəm. Bu, dövlət başçımızın mədəniyyətə, incəsənətə xüsusi diqqət və qayğısının daha bir bariz nümunəsidir. Bundan sonra da hər zaman milli teatrın təşəkkülündə sənət yanğısı və coşqu ilə çalışacağam. Bu gün sənətkarlarımız teatr sənətini ənənəsinə sadiq qalaraq, tamaşaçı zövqünü oxşaya biləcək, onlarda yüksək mənəvi dəyərlər əks edən əsərləri səhnələşdirir və yeni-yeni uğurlar qazanır.

Bir daha əməyimizə verdiyi qiymətə görə, Cənab Prezidentə öz minnətdarlığımı bildirirəm. Mənim və ümumilikdə, kollektivimizin məhsuldar əməyinə verilən qiymətə görə bir daha Cənab Prezidentimizə minnətdarıq!"

### MAYƏ MƏMMƏDOVA: "BİZ DƏ ZƏNGİN, ÇOXƏSRLİK MİLLİ MƏDƏNİYYƏT PALİTRASINA ÖZ TÖHFƏMİZİ VERƏ BİLİRİK"

Teatrın direktor müavini Mayə Məmmədova Azərbaycanın zəngin mədəniyyət tarixində önəmli rol oynayan teatr sənəti və bu sahədə çalışan insanların həssaslığı ilə seçildiyini bildirdi: "Dövlət başçısı hər zaman bu həssas insanlara əlahiddə qayğı göstəribdir. Mənim də "Tərəqqi" medalı ilə təltif olunmağım bu qayğının nümunəsidir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin imzaladağı Sərəncama əsasən, təltif olunmağımdan qürur duyuram. Ölkəmizin sosial-iqtisadi inkişafı, beynəlxalq aləmdə uğurlar qazanması bir vətəndaş kimi qəlbimizi fərəh hissi ilə doldurur. Bu uğurların sırasında mədəniyyət də xüsusi yer tutur. Gənc nəslin mənəvi cəhətdən kamilləşməsində, onların dünyagörüşünün formalaşmasında və Vətənə məhəbbət ruhunda tərbiyə olunmasında əvəzsiz xidmətləri olan teatr bu istiqamətdə bir sıra əhəmiyyətli layihələrə imza atıb və nə yaxşı ki, biz də zəngin və çoxəsrlik milli mədəniyyət palitrasına öz töhfəmizi verə bilirik. Bir daha Cənab Prezidentə bu diqqət və qayğıya görə, minnətdarlığımı bildirirəm".

***Nəzakət ƏLƏDDİNQIZI***

# "İqtisadi artım və ictimai rifah" mövzusunda beynəlxalq konfrans keçirilib

***Dünən AMEA İqtisadiyyat İnstitutunun yaranmasının 60 illiyi münasibətilə "İqtisadi artım və ictimai rifah" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans iştirakçıları, öncə Fəxri Xiyabana gedərək, Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, məzarı önünə əklil qoyublar.***

Sonra görkəmli oftalmoloqalim, akademik Zərifə xanım Əliyevanın xatirəsi anılıb, məzarı gülçiçək dəstələri düzülüb. Həmçinin, Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları ziyarət olunub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Dövlət və hökumət rəsmilərinin, ali məktəb rektorlarının, xarici ölkələrdən tanınmış iqtisadçı- alimlərin iştirak etdikləri konfransı giriş sözü ilə AMEA-nın prezidenti, akademik Akif Əlizadə açıb. Elmimizin inkişafına mühüm töhfələr verən İqtisadiyyat İnstitutunun respublikada sosial-iqtisadi problemlərinin həlli sahəsində əhəmiyyətli rolundan danışan alim kollektivi bu əlamətdar gün münasibətilə təbrik edib. AMEA-nın prezidenti Ümummilli Lider Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafı üçün tarixi xidmətlərindən söz açaraq, ölkəmizdə qazanılan uğurların təməlində, məhz Dahi Liderin uğurlu sosial-iqtisadi strategiyasının dayandığını qeyd edib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursun, artıq 15 ildir Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyərək, ölkə başçısının 2018-ci il 16 oktyabr tarixli sərəncamları ilə iqtisad elminin inkişafındakı xidmətlərinə görə İqtisadiyyat İnstitutunun bir qrup əməkdaşının dövlət mükafatları ilə təltif olunduğunu diqqətə çatdırıb. O, bu ali diqqət və qayğıya görə, Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib.



Tədbirdə İqtisadiyyat İnstitutunun direktoru, professor Nazim İmanov son illər rəhbərlik etdiyi elmi müəssisənin həyatında baş verən yeniliklərdən, əldə olunan nəticələrdən və həyata keçirilən məqsədyönlü islahatlardan, xarici elmi dairələrin diqqətini çəkən fundamental tədqiqatlardan söhbət açıb.

Konfransda Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin sədri, akademik Ziyad Səmədzadə, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, İqtisadiyyat İnstitutunun şöbə müdiri, professor Tofiq Hüseynov, Çin Sosial Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi Şurasının sədri, professor Pei Çanhunqa, Ukrayna Milli Elmlər Akademiyası İqtisadiyyat və Proqnozlaşdırma İnstitutunun direktoru, akademik Valeriy Qeyets, Azərbaycan İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı və başqaları çıxış edərək, kollektivi yubiley münasibətilə təbrik edib, gələcək elmi fəaliyyətlərində uğurlar arzulayıblar.

Tədbir çərçivəsində İqtisadiyyat İnstitutu ilə bir neçə xarici elmi mərkəz arasında birgə tədqiqatların aparılması məqsədilə əməkdaşlıq müqavilələri imzalanıb, həmçinin, gənc iqtisadçılar arasında keçirilmiş elmi məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıblar. Bundan başqa, Çin Sosial Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi Şurasının sədri, professor Pei Çanhunqa AMEA İqtisadiyyat İnstitutunun fəxri doktoru diplomu təqdim edilib.

Konfrans öz işini "İqtisadi artımın təmin edilməsi", "İqtisadi fəaliyyət sahələri və sosial müdafiə sistemi" və "Sosial rifahın yaxşılaşdırılması" bölmələri üzrə davam etdirib. Bölmə iclaslarında iqtisadiyyatın müxtəlif sahələri üzrə alim və mütəxəssislərin məruzələri dinlənilib və müzakirələr aparılıb.

***Zümrüd BAYRAMOVA***

# "Eurovision" təmsilçisi vəfat etdi



Latviyanı "Eurovision 2005" mahnı müsabiqəsində təmsil edən müğənni Valter Fridenberqs vəfat edib. SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, ifaçının ölümünə səbəb onun uzun müddətdir xəstə olmasıdır. 30 yaşlı Valter xərçəngdən əziyyət çəkirmiş. Son günlər isə onun halı pisləşib və xəstəxanaya yerləşdirilib.

Qeyd edək ki, Valter "Eurovision"da Kaca ilə birlikdə "The War Is Not Over" adlı mahnını səsləndirmişdi.

# Acınacaqlı məğlubiyyət astanasında olan erməni separatçılığı

*Separatçılıq və terrorçuluq üzərində qurulmuş işğalçı dövlətin səyləri, terrorçularla əməkdaşlıqları faydasızdır*

**Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə, erməni işğalçıları tərəfindən işğal olunmuş ərazilərimizin geri qaytarılması ilə bağlı dəyişməz mövqeyinin, eləcə də, ordumuzun keçirdiyi təlimlərin, ölkəmizin hərbi qüdrətinin fonunda Ermənistanda müşahidə olunan təşviş başadüşüləndir. İşğalçı dövlətdə çox yaxşı başa düşürlər ki, danışıqlar yolu ilə Dağlıq Qarabağ münaqişəsi həllini tapmazsa, Azərbaycan torpaqlarını separatçılardan təmizləmək üçün ordu gücündən istifadə etmək iqtidarına malikdir və əgər ordumuz Qarabağda antiterror əməliyyatlarına başlasa, düşmən ən qısa vaxtda darmadağın ediləcək.**

Azərbaycanın başqa dövlətin ərazisində müharibə aparmaq fikri, qonşu dövlətlərin heç birinə qarşı ərazi iddiası olmasa da, öz torpaqlarını separatçılardan, terrorçulardan azad etmək haqqı var və bu, tək bizim deyil, hər bir dövlətin konstitusion hüququdur. Yalnız ermənilər deyil, bütün dünya ictimaiyyəti bilir ki, Qarabağ tarixən Azərbaycan torpağı olub və şübhə yox ki, Azərbaycan dövləti bütün imkanlarından istifadə edərək, işğal olunmuş ərazilərini separatçılardan və terrorçulardan təmizləyəcək.

İşğalçılar lokal müharibənin başlayacağından bərk ehtiyat edirlər, daha doğrusu, qorxurlar. Çünki Azərbaycan Ordusunun bir vaxtlar pərakəndə olduğundan sui-istifadə edən terrorçular və separatçılar indi qüdrətli, nizami ordu və hərbi güclə qarşılaşacaqlarından xəbərdardırlar. Eyni zamanda, ölkəmizin hərbi müttəfiqləri, onlarla birgə keçirilən hərbi təlimlər, hərbi əməkdaşlıqlar da haqlı olaraq, işğalçıların kürkünə birə salıb. Məhz elə buna görə də, Ermənistan tərəfi əldən-ayaqdan gedir ki, dünya ictimaiyyətinin diqqətini cəlb etsin və bir növ özünü məzlum, yazıq, gücsüz və haqları tapdalanmış çarəsiz kimi göstərməklə, az qala əl açıb bütün dünyadan yardım dilənir.

### İşğalçı dövləti müdafiə etmək separatçılığı, terrorçuluğu, işğalçılığı müdafiə etmək deməkdir və bunun acı nəticələri danılmazdır

Ermənistanın dilənçilik ritorikası Frankofoniya sammitinə qədər daşındı və yenə də guya ki, haqları tapdalanmış, məzlum görünüş alan saxtakar erməni xisləti və siması özünü büruzə verdi. Amma bütün dünya ictimaiyyəti, beynəlxalq qurumlar, demokratik institutlar, dünya ölkələri, fövqəldövlətlər bilməlidirlər ki, bu istənilən yardım müdafiə üçün yox, separatçılığın daha da gücləndirilməsi üçündür. Bilməlidirlər ki, başda Frankofoniya sammiti iştirakçıları olmaqla, BMT, Avropa İttifaqı, ATƏT və digərləri Ermənistanı müdafiə etməklə, separatçılığı, terrorçuluğu, işğalçılığı müdafiə edirlər və bunun acı nəticələri ilə özləri də mütləq qarşılaşmalı olacaqlar.

Avropa ölkələrinin separatçılıq meyillərinə qarşı sərt reaksiya verdiyini, hətta lazım gəldikdə, cəza tədbirlərindən istifadə etməkdən belə çəkinmədiyini artıq bütün dünya ictimaiyyəti müşahidə edir. Onu da müşahidə edir ki, hətta ölkələrin öz konstitusiyaları beynəlxalq hüquq normalarından da üstün hesab olunaraq, hadisələrin dövlətdaxili məsələ kimi qarşısının alınması istiqamətində operativ tədbirlər görülür. Məsələn, İspaniya hökumətinin Kataloniyada baş verən hadisələrdən sonra separatçıların həbs olunması üçün hərəkətə keçdiyi uzaq keçmişdə deyil və Kataloniyanın keçmiş başçısı Karles Puçdemon və onun tərəfdarlarının qiyam hazırlanması ittihamı ilə mühakimə olunması da unudulmayıb. Dünya dövlətləri, beynəlxalq təşkilatların isə bu tədbirləri dəstəklədiyi və separatçıların deyil, dövlətin maraqlarını müdafiə etdiyi də diqqətdən yayınan deyil.

Faktlar təsdiq edir ki, digər separatçı rejimlərlə, o cümlədən, Qarabağdakı qondarma qurumun üzvləri ilə bağlı bu vaxta qədər laqeyd münasibət göstərən Avropa qurumları artıq öz daxilində separatçı rejimlərə qarşı hərəkətə keçib. Ümumiyyətlə, Avropa öz daxilində separatçılığa qarşı çox həssas davranır və bir an belə separatizmi gözdən qoymur. Maraqlıdır, Kataloniya separatçılarının həbsini dəstəkləyən Avropa təsisatları Qarabağ separatçılarına qarşı eyni addımı atacaqmı? Yaxud Avropanın başqa yolu qalırmı və yenədəmi ikili standartlardan çıxış etmək niyyəti ola bilər? Məgər separatçılığın vətəni, yaxud məkanı olur, yoxsa mübarizə yalnız Avropa üçün keçərlidir? Yoxsa Kataloniya hadisələri zamanı separatçıların bir anda susdurulması, hətta lazım olduğu anda rezin güllələrlə, gözyaşardıcı qazlarla, itlərlə, sepatarçılara təzyiqlərin göstərilməsi Dağlıq Qarabağda separatçılarla mübarizə üçün presedent sayılmaya bilərmi?

### Terrorçuluq və separatçılıq təkcə Cənubi Qafqazın deyil, artıq bütün Avropanın, ümumilikdə, dünyanın problemidir

Muxtar vilayətdə məskunlaşmış əhalinin yerli aborigenlərdən, etnoslardan ibarət olduğu halda, yeni həmin ərazilərdə müstəqil dövlət qurmaq istəyinin beynəlxalq hüquqa zidd olduğu halda, Avropa institutları, beynəlxalq təşkilatlar İspaniyanın maraqlarından çıxış edərək, bu ölkənin ərazi bütövlüyünü qəbul etdisə və separatçıların cəzalandırılmasına qarşı çıxmadısa, yerli aborigenlər, etnoslar olmayan, üstəlik, ərazinin kənar bir dövlətin, ələlxüsus, işğalçı rejimin təcavüzü ilə zəbt olunan Dağlıq Qarabağda separatizmlə mübarizəyə hansı əsasla qarşı çıxa bilər? Əgər Kataloniyaya münasibətdə bu tətbiq edilib, Dağlıq Qarabağla bağlı məsələdə tətbiq edilməsə, onda bütün dünya bundan sonra da ikili standartlarla üz-üzə qalacaq və bu halda regionda sülhə və təhlükəsizliyə yeni təhdidlər inkar edilə bilməz.

Sözsüz ki, separatçılıq və terrorçuluq üzərində qurulmuş dövlətçiliyin sonu bəllidir və işğalçıların səyləri, özü kimi vandallarla, terrorçularla görüşləri və müzakirələri faydasızdır. Çünki separatçılıq və terrorçuluq artıq təkcə Cənubi Qafqazın deyil, bütün Avropanın, ümumilikdə, dünyanın problemi hesab olunur və bu mənada, Ermənistan hədəfdə olan ölkədir. Bir sözlə, beynəlxalq miqyasda da Ermənistanın durumu separatçıların mövqeyi heç kimin ürəyincə deyil və Avropanın, eləcə də, bütün dünyanın separatizmlə mübarizə aparmaq məcburiyyətində olması işğalçı rejimin acınacaqlı məğlubiyyətini və sonunu vəd edir.

**İnam HACIYEV**



# Ermənistanda idarəolunmaz xaotik durum

*Paşinyan küçədən gəldi və küçəyə atıldı*

***Küçə "demokratı" Nikol Paşinyan anlamırdı ki, yellə gələn, yellə də gedər. Bu istefa Koçaryan və Sarkisyan tərəfdarlarının Paşinyana olan münasibətləri daha da gərginləşdirə bilərlər. Ermənistan KİV-də onun istefa verməsinə səbəb kimi ölkə parlamentinin tezliklə buraxılması və növbədənkənar seçkilərin keçirilməsi göstərilir. O zaman sual yaranır: Paşinyan istefa verməklə, seçkilərdə nəyi qazanmaq istəyir?***



"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Paşinyanın istefasına münasibət bildirərək, bu istefasının taktiki xarakter daşıdığını söyləyib: "Paşinyan erkən parlament seçkisini dekabrın əvvəlində keçirmək istəyir. Ancaq bunun üçün konstitusiyaya görə birincisi, baş nazir istefa verməlidir, ikincisi, parlament 14 gün ərzində yeni baş nazir seçməməlidir. Bu zaman seçki qanununa görə, parlament avtomatik yeni parlament seçkisi təyin etməlidir. Nikol Paşinyanın 14 günlə bağlı qəti təminatı olmasaydı, istefa verməzdi. Parlamentdəki partiyalar Paşinyanın yerinə başqasını baş nazir seçməyə risk etməyəcəklər. Çünki əks-halda, Paşinyan tərəfdarlarını küçəyə tökəcək. Ermənistan parlamenti və əksər partiyalar Paşinyanın gəlişindən sonra küçədən qorxur".

E.Şahinoğlu Paşinyanın Qarabağ münaqişəsinə təsirindən də danışaraq, bildirib ki, Ermənistanda seçkilərə qədər maraqlı proseslər cərəyan edəcək: "Belə ki, yenilər köhnələri, o cümlədən, "Qarabağ klanını" həm hakimiyyətdən, həm də müxalifətdən uzaqlaşdırmağa çalışacaq. Paşinyan birincini həll edib, indi ikincini reallaşdırmalıdır. Bunun Dağlıq Qarabağ münaqişəsinin həllinə nə kimi təsiri olacağı sualına isə gələn ilin əvvəlindən aydınlıq gətirmək olar".

### "Paşinyanın istefası ilə ölkə Rusiyanın əlindən çıxır, onların yeni hədəfi var"

Politoloq İlqar Altay bildirib ki, Paşinyanın istefası heç də, vəzifədən getmə, qaçması mənasını vermir: "Əksinə, bu addım onun bu posta yenidən yiyələnməklə, yeni, öz istədiyi parlamentə sahib olması üçün hüquqi prosedurdur. Beləliklə də, icra və qanunvericilik hakimiyyətini bir ələ cəm edir, liderliyini daha möhkəmlədir. Necə? Paşinyan bəyan edirdi ki, onun başçılığı ilə xalqın etdiyi inqilab yarımçıqdır və o zaman başa çatacaq ki, köhnə parlament yeni seçkilər keçirilərək yenisi ilə əvəz olunsun. Növbəti parlament seçkisinin vaxtına xeyli var. Vaxt isə gözləmir. Bu zaman yeganə yol, erkən və növbədənkənar seçki keçirilməsidir".

Politoloq onu da bildirib ki, parlament çoxluğu Paşinyanın qurduğu oyuna getmirdi və rəsmi olaraq söz vermirdi ki, Paşinyan istefa versə, öz başqa namizədlərini irəli sürməyəcəklər. Buna görə də, Paşinyan istefasını ləngidərək, xalqı ayağa qaldırdı ki, parlamentdən bu ssenariyə əməl etməyi tələb etsin. Görünür, xalq parlamenti, nəhayət, məcbur etdi.

Niyə indiki parlament buna getmək istəmirdi? Çünki bilirlər ki, xalq onları seçməyəcək, deputat yerlərini itirmək istəmirlər. Ən əsası isə, parlamentdən kənarda qalanda özləri və yaxın ətrafa qarşı korrupsiya işi, həbs başlamasından qorxurdular. Görünür, bu aradakı qısa dövrdə parlamentarilərlə Paşinyan arasında xüsusi bir toxunulmazlıq razılaşması əldə olunub. Demək ki, Paşinyanın bu istefa gedişi ilə, artıq Ermənistanda tam dolğun inqilabın, yəni bütün hakimiyyət qollarının xalqın əlində olması kimi yekunun son mərhələsi başladı".

### Paşinyanın növbəti taktikası

Politoloq Sahib Alıyev isə bildirib ki, Paşinyanı da hakimiyyətə gətirənlər istefaya göndərdilər: "Ermənistandakı hərbi xunta rejimini çevriliş yolu ilə dəyişərək, hakimiyyətə gələn Nikol Paşinyanın istefa verməsinə baxmayaraq, o, hələlik, baş nazirlik səlahiyyətlərini icra edir və istefası bir neçə gündən sonra tam rəsmiləşəcək.Çoxları bunu Paşinyanın çıxılmaz durumda olması, vədlərinin heç birini yerinə yetirə bilməməsi kimi dəyərləndirir, onun hakimiyyətə yenidən qayıtması, öz imicini yenidən bərpa etməsi üçün əvvəlcədən hazırlanmış ssenari və oyun kimi qiymətləndirirlər. Əksər yerli və xarici ekspertlər, belə hesab edirlər ki, bu qayıdış heç də Paşinyanın hesabladığı kimi olmaya bilər. Onu elə hakimiyyətə gətirənlər özləri birdəfəlik hakimiyyət və siyasət meydanından silə bilərlər".

S.Alıyev bu ehtimalların güclü, onların reallıq əmsalının daha yüksək olduğunu vurğulayıb: "Əvvəla, Paşinyanın istefası demokratiya adına atılan addım deyil, Ermənistanda baş vermiş çevrilişi seçki yolu ilə legitimləşdirməkdir. İkincisi, Paşinyan yaxşı bilir ki, Dağlıq Qarabağ problemi həllini tapmayınca Ermənistanda vəziyyət düzəlməyəcək, indi verdiyi vədlərin hamısına əməl etsə belə. Bu da, təbii ki, onun populyarlığının buxarlanmasına səbəb olacaq. Hələlik, populyardır və bu baxımdan, tez-tələsik seçki keçirib, parlamentdə öz tərəfdarlarını əyləşdirmək istəyir. Böyük ehtimalla onun bu istəyi baş tutacaq. Amma sonra Paşinyan özündən əvvəlki rejimlərdən daha pis vəziyyətlə üzləşəcək. Parlamentdə yer almayan güclər onu hakimiyyətə necə gəlmişdisə, o cür də yola salacaqlar. Üçüncüsü, biz bir reallığı bilməliyik ki, hazırda Paşinyanın elektoratı olaraq dəyərləndirilənlər, əslində, "paşinyançı" yox, "anti-sarkisyançılar"dır. Onların Paşinyana dəstəkləri onun yüksək keyfiyyət daşıyıcısı olmasından yox, Sarkisyan, Koçaryan və "Qarabağ klanı"nın digər təmsilçilərinə olan narazılıq və nifrətdən qaynaqlanır".

Politoloq onu da bildirib ki, hərbi xunta devrildiyindən, o nifrət yavaş-yavaş buxarlanacaq və Dağlıq Qarabağ problemi həllini tapmadığı təqdirdə, ölkəsində iqtisadi baxımdan əhəmiyyətli bir dəyişiklik əldə edə bilməyən Paşinyanın reytinqi birdən-birə necə qalxmışdısa, eyni sürətlə də düşəcək.

**A.SƏMƏDOVA**

# Arif Hacılı "diplom" satır -72-si 500 min avroya!

*Müsavatın "mühacir biznesi"nin daha bir tərəfi*



**Dağıdıcı müxalif düşərgədə "mühacir biznesi" məsələsi günügündən daha qabarıq şəkildə yer almaqdadır. Xüsusilə, Avropa ölkələrinə "siyasi mühacir" adı altında məskunlaşanların əksəriyyətinin AXCP və Müsavat partiyaları tərəfindən saxta sənədlərin verilməsindən istifadə etdikləri də kimsəyə sirr deyil.**

İstər Əli Kərimlinin, istərsə də Arif Hacılının möhür və ştampli təsdiqləri, o cümlədən, "mühacirlərə" verdikləri rəylər, guya onların Azərbaycanda hakimiyyət tərəfindən təqib olunmalarına dair saxta arayışlar verməları, söz yox ki, pul-para müqabilində reallaşdırılır. Artıq dəfələrlə o da isbatlanıb ki, aksiyalarda ümumi şəkil çəkdirmək üçün bir, partiya sədrləri ilə şəkil çəkdirmək isə, digər qiymət preyskurantları ilə ölçülür. Bu qiymət cədvəlləri haqqında da mətbuatda kifayət qədər informasiyalar yer alıb.

## Frankfurt səfərinin pərdəarxası məqamları - bazar siyasəti

Ortada digər maraqlı məqamlar da var. Necə deyərlər, "mühacir biznesləri"ni təkmilləşdirən dağıdıcı müxalifətin siyasi partiya "liderləri" yeni-yeni "ideyalarla" çıxışlar edirlər. Buna misal kimi, Müsavat başqanı A.Hacılının bu ilin yayında Almaniyaya etdiyi səfərini xatırlaya bilərik. Bununla bağlı, bir sıra sabiq müsavatçılar A.Hacılının "biznes layihəsini" ifşa edən faktlarla bir-birindən maraqlı məlumatlar səsləndirmişdilər. Bəlli olmuşdu ki, A.Hacılı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı tədbirlərə qatılmaq üçün, daha doğru desək, bu tarixi faktdan sui-istifadə edərək, qazanc əldə etmək üçün, Frankfurt şəhərinə səfər etdi. Məhz keçmiş müsavatçılar da, bu fikirdə idilər ki, A.Hacılının Almaniyaya getməsində məqsəd heç də tarixi AXC-nin yubiley tədbiri olmayıb. Bəlli olub ki, Müsavat başqanı ölkədən gedərkən, özü ilə Avropada saxta siyasi mühacir statusu almaq istəyən şəxslərə satmaq niyyəti ilə 72 ədəd Müsavat "diplomu" da aparıbmış. Nəticədə, siyasi partiyasının maraqlarını bir kənara ataraq, bazar maraqlarını güdən və Müsavat adından saxta diplom alverini reallaşdıran Hacılı 72 ədəd diplomun hərəsini 500 avroya sataraq, ümumilikdə, şəxsi büdcəsinə 36 min avro əlavə etmiş olub. Nəzərə alarsaq ki, həmin diplomlar sadə karton kağızdan hazırlanıb və onların hazırlanması xərcləri, ümumilikdə, maksimum 100 AZN-dən artıq da deyil, bu zaman, rəqəmlər arasındakı fərqləri sadə hesab gözü ilə də seçmək mümkündür.

## Müsavatçı mənbə: "Bu bazardan əldə edilən gəlirin bir hissəsi Razim Əmiraslanlı, Gülağa Aslanlı, Səxavət Soltanlı və Nüşabə Sadıxlı arasında bölüşdürülüb"

Müsavata yaxınlığı ilə seçilən mənbədən "Səs"ə verilən məlumata görə, həmin pulların haraya və hansı məqsədlərlə xərclənməsi də bəlli olub. "Arif Hacılı AXCP-dəki həmkarı Ə.Kərimlidən fərqli olaraq, bu kimi məsələlərdə simic deyil və qazancını həmkarları ilə də bölüşüb" deyən müsavatçı mənbə bildirib: "Müsavata xidmətlərinə görə təltif olunan" şəxslər, əsasən, bu "diplom"lar vasitəsilə Avropada oturum almaq istəyən və mövqelərini daha da möhkəmləndirmək üçün istifadə edənlər olub. "Diplom" satışından əldə etdiyi vəsaitin bir hissəsini A.Hacılı partiyanın Avropadakı "işçilərinə" paylayıb, pulun qalan hissəsi Ankaraya səfər zamanı xərclənib. Yerdə qalan məbləğ isə A.Hacılını müşayiət edən partiya funksionerləri Razim Əmiraslanlı, Gülağa Aslanlı, Səxavət Soltanlı və Nüşabə Sadıxlı arasında bölüşdürülüb".

Mənbənin iddiasının reallığı əks etdirməsi məqamlardan biri də "diplom"un paylanılması barədə xəbərlərin partiyaya aid saytlarda və sosial şəbəkələrdə işıqlandırılmamasıdır. Belə ki, tədbirin rəsmi hissəsi canlı yayımlarla təqdim edilsə də, əsas məsələ - "mükafatlandırılma" hissəsi heç bir yerdə qeyd olunmamışdı. Bu isə, bir daha sübut edir ki, rəhbərlik etdiyi partiyasını siyasi alverdən açıq bazar alverinə çevirən Hacılı, onun bu addımının ictimailəşdirilməməsini istəyib. Çünki kor-kor - gör-gör, bütün faktlar ortalıqdadır.

*Rövşən NURƏDDİNOĞLU*

# Radikal düşərgədəki qarşıdurmalara ilkin reaksiyalar bu cür verildi

*AMİP: "Biri digərini təhqir etməklə, aşağılamaqla sanki zövq alır, özünə təsəlli sayır"*

**Müxalifətdaxili qarşıdurmaların artması bu düşərgədə təmsil olunan digər partiya təmsilçiləri tərəfindən kəskin şəkildə qınanılmaqdadır.**

Məhz İqbal Ağazadə-Arif Hacılı, eləcə də, "Milli Şura"-Qurban Məmmədov, həmçinin, buna bənzər digər çoxsaylı qarşıdurmalar barədə fikrini bildirən AMİP-in katibi Əli Orucov bildirib ki, ənənəvi müxalifət köhnəlmiş psixologiyadan qurtula bilmir. O, eyni zamanda, qeyd edib ki, debat və müzakirələrin aparılması normal haldır, lakin bunları da sivil qaydada etmək lazımdır. "Biri digərini təhqir etməklə, aşağılamaqla sanki zövq alır, özünə təsəlli sayır" deyən milli istiqlalçı funksionerinə görə, düşərgədə siyasi partiyalaşma sahəsində də bir inhisarçılıq mövcuddur. O cümlədən, birinin digərinə qarşı ittihamı səslənirsə, həmin ittihama cavab tapılmırsa, qarşı tərəf satqın adlandırılır: "Köhnəlmiş ənənələrdən və psixologiyadan qurtarmayıblar. Kim onun kimi düşünmürsə, onun istədiyi kimi deyilsə, dərhal satqın damğası vurulur".

## "Müxalifət, onsuz da cəmiyyətdə və ölkədə gedən proseslərdə iştirak imkanlarını demək olar ki, itirib"

AMİP-in katibinin sözlərinə görə, müxalifət düşərgəsi özü-özünün yollarını bağlayır. Belə ki, əks halda, partiyaların da belə dedi-qodulara, təhqirlərə yol verməden sağlam siyasi rəqabətə üstünlük verə biləcəyini də deyən Ə.Orucov hesab edir ki, bəzi siyasi qüvvələr sağlam siyasi rəqabətə hazır deyillər: "Ona görə də, alternativ proqram və ideya, eləcə də, vacib problemlərin həlli müzakirəsi deyil, əksərən boş və mənasız hallar üzərində uzun-uzadı söz duelı açılır. Bunlardan maksimum dərəcədə qaçmaq lazımdır. Müxalifət, onsuz da, cəmiyyətdə və ölkədə gedən proseslərdə iştirak imkanlarını, demək olar ki, itirib. Bu barədə düşünmək lazımdır".

## Ağ partiya: "Bu savaşlar siyasi məhvə doğru aparır"

Keçmiş müsavatçı, hazırda Ağ partiyanın sədri olaraq, düşərgədə fəaliyyət göstərən Tural Abbaslı da AMİP-dəki həmkarı ilə eyni mövqeyi bölüşməklə yanaşı, eyni zamanda, düşünür ki, müxalifətdaxili bu ziddiyyətlərin əsl səbəbi partiya rəhbərlərinin keçmişdən bir-birilərinə qarşı olan neqativ münasibətlərinin davamıdır. "Bu partiyalar öz aralarındakı savaşları ilə xalq arasındakı nüfuza bərpaolunmaz zərbələr endirir və siyasi məhvə doğru aparır" deyən T.Abbaslıya görə, bəlli qarşıdurmaların səngiməsi inandırıcı görünmür: "İnanmıram ki, bu insanların bir-birilərinin şəxslərinə və nə vaxtsa keçmişdə olmuş narazılıqları aradan qalxsın və bu qarşıdurmalar səngisin".

## "Bəlkə bu yolla artıq illərdir mübarizənin önündə tıxac rolu oynayan bəzi siyasilər səhnədən çəkilər"

Müxalifətçi partiya sədri köhnə müxalifətçilərin yenilənmək marağında olan tərəflərə qarşı baryer olduqlarını da istisna etməyib və bildirib ki, əslində, ziddiyyət və qarşıdurma yaşayan ənənəvi müxalifət rəhbərləri bir-birlərini daha açıq formada ittiham etsələr, onda hər şey tam şəkildə aydınlaşar və cəmiyyət də kimin-kim olduğunu öyrənər. "Bəlkə bu yolla, artıq illərdir mübarizənin önündə tıxac rolu oynayan bəzi siyasilər səhnədən çəkilər" deyə ümid edən T.Abbaslı artıq bunun zamanının çatdığını da bildirib.

*RÖVŞƏN*

# Qozbeli qəbir düzəldər

*Mirmahmud Mirəlioğlu: "Əli Kərimli müxalifət düşərgəsində qolçomaqlıq prinsipi aparır"*

**Bəlli olduğu kimi, Klassik Azərbaycan Xalq Cəbhəsi Partiyasında daxili vəziyyət neçə müddətdir ki, kritik səviyyəyə çatıb. Baş verən qarşıdurmalar fonunda əsas tərəflər - sədr Mirmahmud Mirəlioğlu bildirib ki, müxalifət düşərgəsində bir qolçomaqlıq prinsipi var və ona da başçılıq edən AXCP sədri Əli Kərimlidir: "25 il keçməsinə baxmayaraq, dağıdıcı müxalifətin təfəkküründə heç bir dəyişiklik olmayıb və olmayacaq da. Kor tutduğunu buraxmadığı kimi, dağıdıcı düşərgənin liderçikləri, mafioz Ə.Kərimdi kimi bir qolçomaq siyasəti aparmaqla yanaşı, o, ancaq hakimiyyət arzusunu həyatı keçirmək məqsədi ilə dövlətə və milli maraqlara qarşı çirkin əməllərindən əl çəkmək istəmir. Özü də bu istəkdə olanlar kimlərdir- satıb-satılan, mənəviyyatsız, siyasi təfəkkür problemi olan xəyanətkarlar - Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli".**



Mirmahmud Mirəlioğlu onu da bildirib ki, "eks-spiker Rəsul Quliyevin sözünə qüvvət, bu "badbaxtlar"ın hərəsi özünü "lider" elan edir: "İndi də O.Gülalıyev özünü müxalifət "lideri" hesab edir, ancaq onu da deyir ki, müxalifətdə olanların hamısı zəif "liderlərdir". Deməli, xalqımız haqlı olaraq belə "müxalifətçilər"in, "liderlər"in arxasınca getməyib, onların çağırışına səs verməyib, onları hakimiyyətə gətirməyib. Yoxsa bilirsinizmi nə baş verərdi? Böyük bir faciə".

M.Mirəlioğlu müxalifət düşərgəsində yaranmış acınacaqlı durumun səbəbini düşərgədə olan bəzi adamların zəif xarakterə sahib olmalarından irəli gəlidiyini deyərək bildirib ki, siz utanmadan birincilik davası döyürsünüz: "Elə sizlərin arxasınca O.Gülalıyev kimilər gələ bilər. Çünki O.Gülalıyevin "Milli Şura"da təmsil olunmaqla, AXCP sədri Ə.Kərimlinin tapşırıqlarını yerinə yetirir. O.Gülalıyevin əsas məqsədi KXCP-ni parçalamaqdır. Bu da Ə.Kərimli xəyanətindən irəli gələn xarekteridir. Ə.Kərimli KXCP-dən iki cüt- bir tək qalan AXCP və yaxud "Milli Şura"ya transfer etmək istəyir. Yaranmış vəziyyət belə davam edərsə, artıq partiyanın parçalanacağı ehtimalını açıq-aydın göstərir. Mirmahmud Mirəlioğlu yaranmış gərginliyin aradan qalxması üçün AXCP-yə qarşı ciddi tədbirlər görəcəyini söyləyib: "Nə qədər ki, düşərgədə Ə.Kərimli kimi qolçomaq prinsipi aparanlar var, heç nəyə nail ola bilməyəcəksiniz. Ona görə də, gəlişi gözəl sözlər demək, təmtəraqlı fikirlər səsləndirmək "güclü lider" olmaq demək deyil. Çünki Ə.Kərimli siyasi oyunbaz, siyasi əxlaqsız və xəyanətkardır".

## Əli Kərimli siyasətə siyasi əxlaqsızlıqla gəlib

M.Mirəlioğlu onu da bildirib ki, özündən böyüyə hörmətsizlik etməyi, ayaqaltı qazandığı, iyrəncliyi, insanlar haqqında çirkin kampaniyalar aparıb ləkələmək kimi işlərin altına imza atan Ə.Kərimlinin bu gün siyasət aləmində qalmasının özü cinayətdir. KXCP sədri, həmçinin Ə.Kərimlinin əxlaqsız da adlandırıb: "Mən Əli Kərimli kimi oyunbazlıq etmirəm, gördüklərimi deyirəm. Beləleri, nəinki cəmiyyətin inkişafına yardımçı ola bilər, əksinə, mümkün qədər cəmiyyətə zərər verməklə məşğul olacaq. AXCP-ni quran, onu ortaya çıxaran və sivil mübarizəsini təşkil edən Əbülfəz Elçibəy idi. Məhz Əbülfəz bəyin sayəsində partiya partiyalığını qoruyub-saxlamışdı. Amma ona qarşı Ə.Kərimli tərəfindən aparılan kampaniyalar, xüsusən də, iyrənc formada təşkil edilən məlumat yaymalar mahiyyət etibarı ilə bu şəxsin hansı ləyaqət və şəxsiyyət sahibi olduğunu ortaya qoyurdu. Onun indiyə qədər "xəyanətkar" adlandırdığı şəxslər, əslində, kifayət qədər aydın fikirli insanlar olublar və xəyanətkarın ən yekəsi də özüdür".

*Rəfiqə HÜSEYNOVA*

# Radikalların gündəmdə qalmaq üçün yeganə şansı - qarşıdurmalardır

*Arif Hacılı ilə İqbal Ağazadə arasında münasibətlər yenidən pozuldu*

***Təkcə, son bir ayda, dağıdıcı müxalifətin təmsil olunduğu düşərgədə dəfələrlə müxtəlif mövzular ətrafında yaranmış polemikalar nəticə etibarı ilə qarşıdurmalara səbəb olmaqdadır. Buna misal kimi, AXCP- "REAL", Müsavat-"REAL", ADP-"Milli Şura", AXCP-Müsavat, KXCP-"Milli Şura" kimi təşkilatları, eləcə də, ayrı-ayrılıqda şəxslərarası, o cümlədən, partiyadaxili ziddiyyətləri göstərmək olar.***

## "Ümid" sədrindən Müsavat başqanına: "Məğlubiyyətin çox səbəbləri var"

Ənənə bu dəfə də davam edib və növbəti qarşıdurma Arif Hacılının başqanı olduğu Müsavat partiyası ilə İqbal Ağazadənin sədri olduğu "Ümid" partiyası arasında. Məsələ isə, ondadır ki, bu dəfə də "Meydan" TV vasitəsi ilə internet üzərindən canlı yayıma qatılan siyasi partiya rəhbərləri 2003-cü ilin 15-16 oktyabr hadisələri ilə bağlı polemikaya girişiblər və bu polemika sonda kəskin ittihamlarla, hətta sərt tənqidi fikirlərdən təhqirlərə və qarşıdurmalara qədər inkişaf edib.

Misal üçün, "Ümid" sədri İ.Ağazadə bu seçkilərdə məğlub olduqlarını dilə gətirib və səbəblərini izah edərkən, əsas baiskar olaraq, Müsavatın o zamankı başqanı İsa Qəmbəri suçlayıb. "Belə ki, məğlubiyyətin müxtəlif səbəbləri var" deyən Ağazadə həmin səbəblərin çox olduğunu bildirib: "Bu, bir verilişə sığmaz. Biz hadisələrin içində olduğumuz üçün ən yaxşısı tarixçilər buna qiymət verə bilər".

Beləliklə, "Ümid" partiyasının rəhbəri 16 oktyabrda İ.Qəmbərin Azadlıq "Meydan"ına gəlib tərəfdarlarının qarşısına çıxmamasını qorxaqlıq kimi qiymətləndirib, habelə, sonrakı hadisələrə ciddi zərbə vurduğunu iddia edib. Hətta həmin vaxt İ.Qəmbərə telefon zəngi də etdiyini deyən İ.Ağazadə qarşı tərəfin onun zənginə etinasız yanaşdığını bildirib. Nəticədə, "Ümid" sədri Müsavat başqanının 15-16 oktyabr hadisələrindəki qorxaqlığını hazırkı müxalifətin sonrakı illərdə ard-arda qazandığı məğlubiyyətlərin əsası kimi qiymətləndirib.

## Müsavat başqanından ilk cavab: "Səviyyəsiz..!"

İ.Ağazadənin bu ittihamları Müsavatın hazırkı başqanı A.Hacılının "boğazından" keçməyib. Keçmiş dostunun iddiaları ilə razılaşmadığını deyən Müsavat rəhbəri "Ümid" sədrinə, eləcə də, "Meydan" TV-yə kəskin etirazını bildirib.

Ümumiyyətlə, Ağazadənin ona verilən sual qarşılığında bir qədər geniş danışması Hacılının irad bildirməsinə səbəb olub və Müsavat başqanı müdaxilə edərək, cavab vermək istədiyini bildirib. İ.Ağazadə isə cavab haqqının onda olduğunu deyərək, vaxtı çatanda onun da cavab verəcəyini ironiya ilə deyib. Məhz bu anda A.Hacılı İ.Ağazadəyə "səviyyəsiz" deyə xitab edib, bunun ardınca isə, vəziyyətin qızışaraq çərçivədən çıxması ortamı daha da gərginləşdirib.

## İqbal Ağazadə: "Səviyyəsiz özünsən..!"

"Ümid" sədri Müsavat başqanına "səviyyəsiz özünsən" deyə cavab verib: "Siz danışdınız, heç mən sizin sözünüzə müdaxilə etmədim, diqqətlə qulaq asdım. Hesab düz gələndə, hamı səviyyədən danışır. 15 oktyabrda heç bizim Müsavat qərargahı qarşısında toplaşmaq düşüncəmiz və planımız yox idi. Mənə İsa Qəmbər zəng etmişdi ki, ora gəlim. Mən isə dedim ki, İsa bəy, insanların oraya toplaşmasına imkan verməyin, bu, hakimiyyət qüvvələrinin əlinə axşamdan əhalidə qorxu yaratmaq üçün bəhanə verəcək və sabah mitinqə qatılanların sayına ciddi mənfi təsir edəcək. İsa bəy isə dedi ki, insanlar toplaşıb, artıq gecdir".

A.Hacılı isə İ.Ağazadəyə "Sənin bir çox planlardan xəbərin belə yox idi" cavabını verib. İ.Ağazadə isə cavabında deyib: "Bəli, mənim xəbərsiz olduğum planlar oldu, biz onun hesabına qalib gəlmədik. İsa bəydən xahiş etdim ki, camaata müraciət etsin və onlar partiyanın qarşısından dağılışsınlar".

## "Azadlıq Meydanından qaçdın... Otağından hansı qadınların alt paltarında pulları qaçırdığını da bilirəm"

Müsavat başqanı, eyni zamanda, bildirib ki, İ.Ağazadə həmişə mitinqin əleyhinə danışıb. "Hətta bununla bağlı efirdə çağırışı da olub" deyə bildirən A.Hacılını səviyyəsiz olmaqla yanaşı, tərbiyəsiz də adlandırıb, eləcə də, daha sərt tonda danışıb. Həmçinin, deyib ki, A.Hacılı Azadlıq "Meydan"ında bir neçə dəqiqədən artıq qalmayıb, mikrofon gətirmək bəhanəsi ilə meydandan qaçıb və gəlməyib: "Sən mikrofon gətirmək adı ilə Azadlıq "Meydan"ından qaçdın. İstəyirsən hər şeyi açım? Otağından hansı qadınların alt paltarında pulları qaçırdığını da bilirəm".

## Arif Hacılı: "Mən belə bir tərbiyəsiz, səviyyəsiz, müxalifəti satmış, İsa Qəmbəri satmış, meydana təsadüfən gəldiyini efirə çıxıb sübut etmiş böhtançı bir adamla debata çıxmaram"

Söz yox ki, bir çox hallarda dalana dirənərkən, dağıdıcı müxalifətin vəziyyətdən çıxmaq üçün qarşı tərəfə "hakimiyyətə işləyirsən" ittihamı önə çıxır. Məhz A.Hacılı da İ.Ağazadənin həqiqəti deməsinin ardınca, bu köhnəlmiş, nimdaşlaşmış və heç bir sübutu olmayan ittihamını işə salıb. A.Hacılı İ.Ağazadənin müxtəlif dairələrə işlədiyini, ona görə həmin vaxt bir çox məsələlərin ondan gizli saxlandığını bildirərək, "Ümid" sədrini satqınçılıqda ittiham edib: "Mən belə bir tərbiyəsiz, səviyyəsiz, müxalifəti satmış, İsa Qəmbəri satmış, meydana təsadüfən gəldiyini efirə çıxıb sübut etmiş böhtançı bir adamla debata çıxmaram..."

Beləliklə, həmin hadisələrin növbəti faktları üzə çıxdıqca, bir daha bəlli olur ki, bu cür fərdlərin hakimiyyətə gəlmək şansları yoxdur və bundan sonra da olmayacaq. Çünki bənzər ittihamlarla, mövcud və dəyişilməz "tərbiyələri" ilə onlardan bundan artığını gözləməyə də dəyməz. Lakin onlara gündəmdə qalmaq lazımdır ki, bu da yalnız qarşıdurmalar, söyüş və təhqirlər vasitəsi ilə reallaşa bilər. Necə ki, A.Hacılı ilə İ.Ağazadənin arasında baş verən olay kimi...

**Rövşən RƏSULOV**

# Divə doğru gedən yolda cırtdanların davası

*Sərdar Cəlaloğlu: "Siyasiləşməmiş ziyalılar siyasətdə təlxək roluna düşür"*

***Uzun müddət idi ki, AXCP sədri Əli Kərimlinin "Milli Şura"nın rəhbəri Cəmil Həsənlini qurumdan kənarlaşdırmaq istəyi ilə bağlı "baş sındırdığı" barədə informasiyalar dolaşırdı.***



Bu gün də yenidən bu fikrə düşən Ə.Kərimli C.Həsənlidən yaxa qurtarmaq üçün "nə şiş yansın, nə kabab" prinsipini işə salıb. Hətta Ə.Kərimli qoca professora istefa ərizəsini də yazdırıb, ancaq hələ ki istəyinə nail ola bilmir. C.Həsənli isə deyilənlərin yalan olduğunu söyləyir. Bir məsələni də vurğulayaq ki, C.Həsənli özü də yaxşı bilir ki, Ə.Kərimli hansı "yuvanın quşu"dur. Çünki bu günə qədər dövlət əleyhinə səslənən hər bir bəyanatın, hər bir çıxışın arxasında Ə.Kərimli ilə C.Həsənli dayanıb. Bütün bunlara baxmayaraq, Ə.Kərimli "net ki, net" deyərək, nəyin bahasına olursa-olsun, "ağır"yük olan C.Həsənlinin getməsi üçün altdan-altdan iş görməyi planlaşdırıb. Xüsusilə də, son vaxtlar "REAL" sədri İlqar Məmmədovun Ə.Kərimliyə ünvanladığı ultimatumlara qarşı mitinq keçirmək təklifinə etiraz edən "Milli Şura" sədrinin hərəkəti AXCP sədrini təbindən çıxarıb. Ə.Kərimli C.Həsənlinin istefasından dərhal sonra "Milli Şura"ya sədr keçməyi qətiləşdirib. Digər məqam isə, dağılıb-viran olan AXCP-ni, məhz "Milli Şura"nın sayəsində "ayaqda" saxlamaqdır. Ancaq maraqlı məqam isə, yeni qalmaqalın - ADP ilə "Milli Şura" arasında baş verməsidir.

## Sərdar Cəlaloğlu: "İstər Əlisi olsun, istər Cəmili olsun, onlar kimilər siyasətçi yox, təlxəklərdirlər"

Son günlərə qədər susan C.Həsənlinin mətbuata açıqlamasında ADP sədrini müxalifətçi hesab etmədiyini bildirməsi və özünü "müxalifətçi və lider" hesab etməsi ADP sədri Sərdar Cəlaloğlunu özündən çıxarıb və bildirib ki, onların hamısı təlxəklərdir: "Belə bir fikir var ki, siyasiləşməmiş ziyalılar siyasətdə təlxək roluna düşür. Ə.Kərimli bütün "titullar" üzrə satqınçılıq, yaramazlılıq, hiyləgrlilik və... daha nələrin sahibidir. C.Həsənli də, professor olsa belə, siyasətin nə olduğunu bilmir. Elə bilir ki, alim kimi danışmaqla, bir az kəskin sözlər deməklə, müxalifətin "siyasi lideri" olur. Ancaq Ə.Kərimli kimi o da satqındır. Bir faktı xatırlatmaq kifayətdir. Belə ki, 2005-ci il parlament seçkisində AXCP-yə mandat verilərkən, Ə.Kərimlinin müavini olan C.Həsənli AXCP-dən imtina etmədi, gedib parlamentdə oturdu. Baxın, indi bu adam mənə qarşı ittiham irəli sürür ki, guya mən müxalifətçi deyiləm. O adam ki, bir mandata görə mənsub olduğu təşkilatdan, ideyasından, yolundan imtina edirsə, hansı əsasla mənim müxalifətçiliyimi şübhə altına alır? Çünki C.Həsənlinin siyasətin, müxalifətçiliyin nə olduğundan xəbəri yoxdur. O, elə bilir ki, kiminsə adını çəkmək müxalifətçilik deməkdir. Bir də C.Həsənliyə kim haqq verib ki, kimin müxalifətçi, olmadığını müəyyən etsin?! Belə bir atalar sözü var ki, "keçi olmayan yerdə, qoyun da Əbdülkərim ağadır" C.Həsənli "Milli Şura"nın rəhbəri yox, Ə.Kərimlinin bir vasitəsidir".

**Rəfiqə HÜSEYNOVA**

# Ziddiyyətlər müxalifəti növbəti dəfə parçalayacaq

*"Əli Kərimli və Arif Hacılı ölüm qurumlarının rəhbərləridirlər"*

***Müxalifətin dil qəhrəmanları olan AXCP sədri Əli Kərimli, Müsavatın keçmiş başqanı İsa Qəmbər və indiki başqanı Arif Hacılı, eləcə də, qondarma "Milli Şura"nın sədri Cəmil Həsənli Qarabağ məsələsindən dili boğaza qoymadan danışıb, bəzən hay-küy xarakterli, populistliyə əsaslanan fikirlər səsləndiriblər.***

Amma reallıqda məlum olur ki, onların fikirləri ancaq və ancaq siyasi maraqlarına hesablanıb. Misal kimi bir qrup müxalifətçinin uğursuzluqla nəticələnən Qarabağ mitinqinə sözügedən şəxslərin qatılmamalarını göstərmək olar. Söhbət etdiyimiz siyasi partiya yetkililəri AXCP sədri Əli Kərimli, Müsavatın keçmiş başqanı İsa Qəmbər və indiki başqanı Arif Hacılı, eləcə də, qondarma "Milli Şura"nın sədri Cəmil Həsənlinin boşboğazlardan ibarət qaragüruh dəstə olduqlarını və onların Qarabağla bağlı danışmağa sözlərinin olmadığını bildirdilər.





## ASDP sədri, millət vəkili Araz Əlizadə: "Müxalifləri cəmiyyət qəbul etmir"

- Siyasi arenaya 1980-ci illərin sonunda gələn Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, İsa Qəmbər və digərləri Qarabağ deyib, siyasətə gələnlərdir. İndi isə onlar mövqelərini dəyişdiyi kimi siyasi kurslarını da dəyişiblər. Maliyyə asılılığı səbəbindən, xarici dairələrə bağlı olub, onların sifarişləri əsasında fəaliyyətlərini qurduqlarından, Qarabağı yaddan çıxarıblar. İndi insan haqlarından danışırlar, hətta camaatı qorxudurlar ki, ay Qarabağda müharibə aparsaq, belə olar, elə olar və s. Bir növ, Qarabağ onlar üçün alət idi, üsul idi.... Artıq bu dəfə bunlar Qarabağ məsələsindən istifadə edə bilməyəcəklər. Çünki müxalifləri cəmiyyət qəbul etmir, danışdıqlarına, dediklərinə də əhəmiyyət vermirlər. Əli Kərimli və Arif Hacılı ölüm qurumlarının rəhbərləridirlər. Fakt budur ki, ölünün qıdığı gəlmir.

## Böyük Quruluş Partiyasının Ali Məclisinin sədri Əjdər Əliyev: "Milli Şura" daxilində ziddiyyətlər davam etməkdədir"

- Müxalifət düşərgəsində təmsil olunanlar arasında mübarizənin kəskinləşməsinin və getdikcə açıq xarakter almasının əsas səbəbi müxalifət liderliyinə onların əsassız iddialarından qaynaqlanır. "Milli Şura" daxilində ziddiyyətlər, daxili qarşıdurmalar həmin qurumun təsis olunmasından bəri davam etməkdədir. Zaman-zaman bu ziddiyyətlərdə nisbi səngimələr müşahidə edilsə də, liderlik ehtirasları, müxalifətçiliyi monopoliyalarına çevirmək istəkləri onların hər hansı ideoloji və ümumi maraqlar ətrafında birləşmələrinə, elan edilən ittifaqın davamlılığına və onun dayanıqlı olmasına imkan verməyib. Bölə bilmədikləri maraqlar, xüsusi ilə də ayrılan maliyyə vəsaitinin bölünməsində qarşıdurmalar yarandığından AXCP, Müsavat və digər partiya funksionerləri bir-birinə düşmən kəsiliblər. Bundan sonra da bunun belə davam edəcəyi daha çox ehtimal olunandır. Çünki müxalifətin pərakəndə və təsirsiz qüvvəyə çevrilməsinə səbəbləri hələ də mövcud olmaqda, şəxsi və qrup mənafeyi hər şeydən üstün tutulmaqda davam edilməkdədir.

**GÜLYANƏ**

# Ulu Öndər Heydər Əliyevin və dövlət başçısı İlham Əliyevin uğurlu gender siyasəti

***Bu gün əsas beynəlxalq sənədlərdə cinslər arasında bərabərlik insanın başlıca hüquqlarından biri kimi təsbit edilir. Beynəlxalq hüquqda haqlı olaraq, qadınlar xüsusi subyekt kimi dəyərləndirilir, onlara hüquqlarının həyata keçirilməsi üçün geniş təminatlar müəyyən olunur. Milli dövlətlər isə, bu təminatların reallaşdırılması, nəzəri cəhətdən mövcud olan yüksək dəyərlərin praktikada tətbiq olunması üçün səylərini ildən-ilə daha da gücləndirməlidir.***

Milli Məclisin deputatı Sahibə Qafarova yazır: "Nəzərə almaq lazımdır ki, qadınlar üçün bəyan edilən bərabər hüquqlar real bərabər imkanların olmaması üzündən çox vaxt gerçəkləşə bilmir. Ona görə də, müasir dövrdə qadınların ictimai həyata daha çox inteqrasiya olunduğu bir zamanda zərif cinsin nümayəndələrinə daha geniş hüquqların verilməsi, onların bütün sahələrdə təmsilçiliklərinin artırılması, fəaliyyət sferalarını - təhsil, səhiyyə kimi ənənəvi istiqamətlərinin daha da genişləndirilməsi və iqtisadi-sosial sferalarda qadınların potensialdan səmərəli faydalanması kimi tədbirlər bu gün daha böyük nailiyyətlərin əldə olunmasına şərait yarada bilər. Hər halda, Azərbaycan dövlətinin bu istiqamətdə atdığı addımlar və əldə olunmuş nailiyyətlər bu fikri daha da qüvvətləndirir. Bildiyimiz kimi, ötən il Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasının 20-ci ildönümünü qeyd etdik. Təbii ki, bu, dövlətçilik tarixi baxımından, o qədər də çox olmayan zaman periodudur. Amma buna baxmayaraq, Azərbaycan Respublikası bu 20 illik dövr ərzində bir çox dövlətlərin əsrlərlə əldə edə bilmədiyi yüksəlişə və inkişafa nail olmuşdur.

Şübhəsiz ki, biz əgər bu gün Azərbaycanda qadın hüquqlarının ən yüksək səviyyədə təminatından, gender bərabərliyindən bəhs ediriksə, bu məsələdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əhəmiyyətini mütləq şəkildə vurğulamalıyıq. Tam səmimi olaraq, qeyd edə bilərik ki, Azərbaycanda uğurlu gender siyasətinin əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Heydər Əliyev, hakimiyyətdə olduğu bütün dövrlərdə, qadın şəxsiyyətinin önəmini yüksək qiymətləndirmişdir. Yüzlərlə qadınlarımız, Onun yaratdığı əlverişli şərait nəticəsində fərdi bacarıqlarını nümayiş etdirmiş, müxtəlif idarəetmə orqanlarında rəhbər vəzifələrdə çalışmışdır. Hələ Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi 1970-1980-ci illərdə ölkənin sosial-mədəni həyatında qadınların rolu xeyli artmışdır. Bu sahədə işləyən qadınların ümumi sayında müəllimlər 47 %, həkimlər 60 %, tələbələr 43 %, elmi işçilər 37 % təşkil edirdi. Bu dövr yetişən ziyalılar içərisində Azərbaycan qadınlarının xüsusi çəkisi olmuşdur. Azərbaycan elminin şöhrətini ucaldan və onu dünyaya tanıdan bu ziyalı qadınlara İttifaq miqyaslı fəxri adların verilməsi Heydər Əliyevin onlar qarşısındakı əvəzsiz xidmətlərindən biri idi.

Ümummilli Lider Heydər Əliyev cəmiyyətdə qadının rolunun yüksəldilməsi məsələsini, həmişə diqqət mərkəzində saxlamaqla, qadınların dövlət strukturlarında, parlamentdə, siyasi və ictimai təşkilatlarda geniş təmsil olunmasına çalışmışdır".

S.Qafarovanın fikrincə, "Ulu Öndərin 6 mart 2000-ci il tarixində "Azərbaycan Respublikasında Dövlət-Qadın Siyasətinin həyata keçirilməsi haqqında" verilən 289 saylı Fərmanı respublika qadınlarına 8 Mart bayramı qabağı önəmli hədiyyə oldu.

2000-ci ilin ilk aylarında Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı hazırlanmışdır. Bu plan 1995-ci ildə Azərbaycanın qoşulduğu "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya və Pekin Fəaliyyət Platformasında qəbul edilmiş strategiyalar əsasında respublikadakı mövcud vəziyyəti və prioritetləri nəzərə almaqla tərtib edilmişdir. Plan problemlərin beynəlxalq standartlara uyğun şəkildə həllinə yönəldilmiş nazirlik, komitə, qeyri-dövlət və beynəlxalq təşkilatların iştirakı ilə hazırlanmış və bütün problemli sahələrdə gender bərabərliyinə yönəldilmiş dövlət sənədidir. "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı" adlanan bu sənədi Azərbaycan Respublikası Nazirlər Kabineti 6 mart 2000-ci il tarixli, 33 saylı qərarı ilə təsdiq etmişdir.

Azərbaycan qadınlarının fəallığının artması istiqamətində önəmli hadisə olan Azərbaycan Respublikası Qadınlarının II qurultayı Prezident Heydər Əliyevin razılığı ilə 27 sentyabr 2003-cü il tarixində keçirilmişdir. Qurultaya 2070 nəfər nümayəndə seçilmişdir. Qurultayda başqa məsələlərlə yanaşı, koordinatorların fəaliyyəti qiymətləndirilmiş, əldə edilmiş nailiyyətlərlə yanaşı, çatışmazlıqlar da müəyyən edilmiş və gələcək inkişaf perspektivlərinin ilkin konturları dəqiqləşdirilmişdir.

Əsası Ulu Öndər tərəfindən qoyulan Azərbaycanın gender siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Dövlət başçısı gender məsələlərinə xüsusi həssaslıqla yanaşır, bu sahədə müvafiq bütün addımlarının atılmasına şəxsən nəzarət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2010-cu ilin may ayında Bakıda keçirilən Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunmuş VII konfransın iştirakçılarına təbrik məktubunda müstəqil Azərbaycan Respublikasında gender məsələlərinə münasibəti bu cür ifadə etmişdir: "Gender bərabərliyi müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil edir. Müstəqil Azərbaycan Respublikasında milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək, hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərir, gender məsələləri ilə bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlmişdir. Azərbaycan təhsili və səhiyyəsində aparıcı mövqelər tutan qadınlarımız ölkəmizin siyasi, sosial və ictimai həyatının bütün sahələrində fəal iştirak etməklə, real gender bərabərliyinə nail olunması üçün öz qüvvələrini əsirgəmirlər."

Gülçöhrə Məmmədova yazır: "Son illərdə Azərbaycanda çox dəyişikliklər, gözəçarpan yüksəliş baş vermişdir. Aparılan kompleks islahatlar, bölgələrin inkişafı, neft strategiyasının real nəticələri xalqın gündəlik həyatında özünü göstərir. Prezident İlham Əliyev milli-mənəvi dəyərlərin qorunub saxlanmasında əvəzsiz rola malik ailə institutunun xüsusi dövlət himayəsində olmasına böyük diqqət yetirir. Ölkədə ailənin inkişafı, cəmiyyətdə qadının yerinin möhkəmləndirilməsi, uşaq hüquqlarının təmin edilməsi məqsədilə həyata keçirilən ardıcıl tədbirlər bu sahəyə dövlət dəstəyini təmin edir.

2006-cı il fevralın 6-da yaradılmış Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi hər üç istiqamətdə qarşıda duran vəzifələrin kompleks şəkildə həlli sahəsində ardıcıl fəaliyyət göstərir.

Müasir dövrdə dövlət siyasətinin prioritet istiqamətlərindən birini gender bərabərliyi probleminin həlli təşkil edir. 2006-cı ildə qəbul edilmiş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanun" kişi və qadınların dövlətin idarə olunmasında və qərar qəbul edilməsində bərabər təmsilçiliyinə, ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına təminat verir.

Hazırda respublikamızda elm, təhsil, səhiyyə, incəsənət sahələrində çalışan 3 akademik, 12 müxbir üzv, yüzlərlə professor, elmlər doktoru, elmlər namizədi və dosent Azərbaycan qadınının yüksək intellektual potensialını nümayiş etdirir. Qadınlarımız ali məktəblərə, yaradıcı təşkilatlara, teatrlara, musiqi və incəsənət müəssisələrinə səy və bacarıqla rəhbərlik edir, ölkənin inkişafında mühüm rol oynayırlar.

Milli Məclisdə 20 qadın deputatın təmsil olunması, icra strukturlarında fəaliyyət göstərən qadınların sayının artması bu istiqamətdə mühüm addımların atılması deməkdir. Hazırda ölkədə 90-a yaxın qeyri-hökumət qadın təşkilatı fəaliyyət göstərir.

Müstəqil Azərbaycanımızın bugünkü ictimai həyatında Birinci Xanım Mehriban Əliyevanın öz xüsusi və əvəzolunmaz yeri var. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın qadınların problemlərinə, onların ictimai həyatda aktiv rolunun təmin edilməsinə böyük qayğı ilə yanaşması, xüsusən, əhəmiyyətlidir. Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti, intellekti və mədəniyyətilə bu gün bütün dünyada Azərbaycanın müsbət, cəlbedici imicinin yaradılmasına və Azərbaycan qadını barədə ən yüksək fikirlərin formalaşmasına xidmət edir.

Respublikamızda aparılan dövlət-qadın siyasəti ölkəmizdə qadınların daha mühüm yer tutmasına, cəmiyyətdə və siyasətdə daha fəal olmasına və rəhbər strukturlarda daha geniş təmsil olunmasına şərait yaradır."

S.Qafarova yazır ki, Azərbaycan Respublikasının bütün Qanunları (Cinayət Məcəlləsi, Mülki Məcəlləsi, Əmək Məcəlləsi, Ailə Məcəlləsi və s.) və normativ-hüquqi aktlarına qadınların bərabər hüquqlarının təsbit edilməsi diqqət mərkəzində saxlanılır kı, bunlar, bütövlükdə, konstitusiya əsasında işlənib- hazırlanmışdır. Bu qanunlarda qadınlara qarşı ayrı-seçkiliyə yol verən müddəalar yoxdur və qanun çərçivəsində insanlar cinsi mənsubiyyətə görə məhdudlaşdırılmır. Qanunvericilik insan hüquqları və mənafelərini, cinsi mənsubiyyətdən asılı olmayaraq, qoruyur və əsas beynəlxalq humanitar aktların tələblərinə cavab verir.

Xüsusi olaraq, vurğulamaq yerinə düşər ki, problemlərin həllində beynəlxalq əməkdaşlığa həmişə mühüm rol oynamışdır. O cümlədən, ölkəmizdə düzgün gender siyasətinin reallaşdırılması üçün beynəlxalq təcrübədən yararlanmaq və bu sahədə geniş əməkdaşlığa imza atmaq bu gün sadaladığımız uğurların əldə olunmasında müstəsna rol oynamışdır. Azərbaycan hökuməti genderin təşviqi sahəsində BMT, ATƏT/DTİHB (Demokratik Təsisatlar və İnsan Haqları Bürosu), AŞ kimi beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

Hazırda Bakıda və Azərbaycanın digər bölgələrində qadınların siyasətə cəlb olunması və qərar qəbuletmə proseslərində iştirakı sahəsində müxtəlif layihələr hayata keçirilir. (Gender bərabərliyinin təşviqi sahəsində ölkəmizin yaxından əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlardan biri də BMT-nin Qadınlar üçün İnkişaf Fondudur (UNİFEM). Ölkəmizin UNİFEM-lə əməkdaşlığı "Qadınlar Cənubi Qafqazda münaqişələrin qarşısının alınması və sülh yaradılması uğrunda" adlı regional layihə çərçivəsində həyata keçirilmişdir. Layihə, əsasən, hökumətlər, qadın koalisiya və şəbəkələri ilə tərəfdaşlıq şəraitində həyata keçirilmiş, gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsi məqsədi daşımışdır. Eyni zamanda, Azərbaycan hökuməti beynəlxalq səviyyədə də qadın hüquqlarının təşviqində fəal iştirak edir. Bunun göstəricisi olaraq, 2008-ci il iyunun 10-11-də Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun Xoşməramlı Səfiri, millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə Bakıda "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" adlı beynəlxalq forum keçirilmişdir. 2010-cu il 24-25 may tarixində Bakıda Avropa Şurasına üzv olan ölkələrin gender məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyinin de-yure və de-fakto təmin edilməsi" mövzusuna həsr edilmiş VII konfransı keçirilmişdir ki, həmin konfransda Avropa Şurasının üzv dövlətlərinə tövsiyələr və fəaliyyətlər üzrə Tədbirlər Planı qəbul edilmişdir. Həmçinin, Azərbaycan dövləti Avropa Şurası ilə də mütərəqqi əməkdaşlıq qurmuş, parlamentarilərimiz qurumun kişi və qadınlar üçün bərabər imkanlar komitəsinin iclaslarında fəal iştirakları ilə, müsbət mənada, seçilmişdir. Bildirmək yerinə düşər ki, komitənin növbəti iclasının, məhz Azərbaycan paytaxtı Bakı şəhərində keçirilməsi gündəmdədir.

Bu gün Azərbaycan qadını ictimai həyatın hər bir sahəsində fəallıq göstərir. Statistik rəqəmlər də bu fikri özündə ehtiva edir. Belə ki, Azərbaycanda qadınların üstünlük təşkil etdiyi sahələr içərisində səhiyyə (78,6 faiz), təhsil (71 faiz) və mədəniyyət (75 faiz) ən ön sıralardadır. Həmçinin, səhiyyə sistemində rəhbər vəzifədə çalışanların 37 faizini, təhsil sahəsində 44 faizini, mədəniyyət və turizm qurumlarında 23 faizini qadınlar təşkil edir. Hazırda ölkəmizdə AMEA-nın 3 həqiqi üzvü və 12 müxbir üzvü qadındır. Bu məqamlar Azərbaycan hökumətinin imkanlarının genişləndirilməsi, qadınların cəmiyyətdə fəallığının artırılması və ümumiyyətlə, onların vəziyyətinin yaxşılaşdırılması məsələlərinə göstərilən yüksək qayğının əyani təzahürüdür.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 19 oktyabr

## Yaponiyada oktyabrın ortalarında sakura ağacları çiçəkləyib



Yaponiyada cövlan edən tufanlar son bir neçə həftə ərzində ölkənin bütün ərazisində sakura ağaclarının çiçəklənməsinə səbəb olub. AZƏRTAC NHK telekanalına istinadla xəbər verir ki, oktyabrın 14-dək meteoroloji şirkət Yaponiyanın qərbində yerləşən Kyüşü adasından başlamış Hokkaydo adasınadək çox geniş ərazidə sakuraların çiçəklənməsi barədə 354 məlumat alıb.

Ağaclar üzrə mütəxəssis Hiroyuki Vada bildirib ki, sakuranın ən geniş yayılmış növü olan "Someiyoşino" yayda çiçək tumurcuqları çıxarır. Adətən bu tumurcuqlar ağacların yarpaqları tərəfindən istehsal edilən hormonlar nəticəsində çox gec çiçək açır. Bu il güclü külək ağacların yarpaqlarını sovurduğuna görə, tumurcuqların çiçəklənməsi asanlıqla baş verib.

## 129 yaşlı qadın: "Uzun ömür tanrının cəzasıdır"



Dünyanın ən yaşlı insanı olan Koku İstambulova uzunömürlü olmasının tanrı tərəfindən ona verilmiş cəza olduğunu deyib. Rusiyada yaşayan 129 yaşlı çeçen qadın həyatı boyunca üzünün gülmədiyini və heç vaxt xoşbəxt olmadığını söyləyib. O, üzərində illərin yorğunluğunu hiss etdiyini, bu günədək hələ də necə sağ qaldığını bilmədiyini deyib: "Həyatımda bir gün belə xoşbəxt olmadım. Həmişə çox işləmişəm və artıq yorulmuşan. Uzunömürlülük tanrının lütfi deyil, bir cəzasıdır".

K.İstambulova SSRİ yarananda 28, İkinci Dünya Müharibəsi başa çatanda 56, SSRİ süqut edəndə isə 103 yaşında olub. O, İkinci Dünya Müharibəsi zamanı faşist tanklarının kəndlərinə necə daxil olduğunu, evinin qarşısından keçməsini hələ də xatırlayır. Müharibədən sonra almanlarla əlaqəsinə görə Stalin tərəfindən Qazaxıstan və Sibir çöllərinə sürgün edilib.

## 60 ildir ağzında gül gəzdirir



60 ildir ağzında güllə gəzir. Türkiyənin Bursa şəhərində yaşayan 87 yaşlı Ali Rza Karan 60 ildir ki, ağzında güllə gəzir. O, mövsümdən asılı olmayaraq, vərdişindən əl çəkmir. O, 27 yaşında həkimin siqaretlə bağlı qadağasından sonra belə bir addım atıb. Bu səbəbdən Orhanqazi rayonunda hər kəs onu "Gül baba" kimi tanıyır.

## Fərhad Rəcəbli usta cüdoçular arasında səkkizinci dəfə dünya çempionu olub




Meksikanın Kankun şəhərində veteran cüdoçular arasında dünya çempionatına start verilib. Yarışın ilk günü Azərbaycan millisi üçün uğurlu olub. AZƏRTAC xəbər verir ki, dünya çempionatında ölkəmizi təmsil edən veteran cüdoçu Fərhad Rəcəbli M-6 kateqoriyası üzrə 90 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Fərhad Rəcəbli Rusiya, ABŞ və Braziliyadan olan rəqiblərini məğlub edərək mundialın ən güclüsü adına layiq görülüb. Qeyd edək ki, bu idmançımızın usta cüdoçular arasında qazandığı səkkizinci çempionluqdur.

## "Bayer Leverkuzen" Tin Edvay ilə müqaviləni yeniləyib



"Bayer Leverkuzen" futbol klubu müdafiəçi Tin Edvay ilə müqaviləni yeniləyib. Klubun saytında yer alan məlumata görə, xorvatiyalı futbolçunun müqavilə müddəti 2023-cü il iyunun 30-dək uzadılıb. Futbolçu bildirib ki, "Bayer" həmişə məni dəstəkləyib. Ən çətin anlarımda məni tək qoymayıb. Mən özümü "Bayer"də evdəki kimi hiss edirəm. Komandamızın gözəl gələcəyi var və biz birlikdə böyük uğurlara imza ata bilərik. Edvay "Bayer"ə 2015-ci ildə "Roma"dan keçib. Xorvatiyalı müdafiəçi cari mövsüm Almaniya klubunun heyətində 4 oyunda meydana çıxıb.

## Bakı Olimpiya Stadionunda UEFA-nın seminarı təşkil olunacaq



Oktyabrın 29-dan noyabrın 1-dək Bakı Olimpiya Stadionunda AFFA-nın təşkilatçılığı ilə UEFA-nın seminarı keçiriləcək. AZƏRTAC xəbər verir ki, "Məktəblərdə futbol" mövzusunda keçiriləcək seminarda AFFA ilə yanaşı, Litva, Moldova, Uels və Kosovo futbol federasiyalarının nümayəndələri iştirak edəcəklər. UEFA-nın Kütləvi futbol üzrə məsləhətçiləri Mark Milton və Stuart Grieve, həmçinin Norveç Futbol Assosiasiyasının sabiq prezidenti, UEFA-nın fəxri üzvü, UEFA-nın Kütləvi futbol səfiri Per Ravn Omdal seminarın mövzusu ilə bağlı təcrübələrini bölüşəcəklər.

## "Rubin" avrokuboklardan kənarlaşdırıldı



Rusiyanın "Rubin" klubu avrokuboklardan kənarlaşdırılıb. UEFA-nın saytında yer alan xəbərə görə, buna Kazan təmsilçisinin maliyyə feyr-pley qaydalarını pozması səbəb olub. Qərara əsasən, qarşıdakı iki mövsüm ərzində, klub Avropa futbol qurumunun bayrağı altında keçirilən yarışlara vəsiqə qazanacağı təqdirdə, bu turnirdə iştirak edə bilməyəcək.

Qərarı UEFA-nın Klublara Maliyyə Nəzarəti üzrə Məhkəmə Palatasının qəbul etdiyi vurğulanıb. Klub UEFA-nın qərarından İdman Arbitraj Məhkəməsinə (CAS) şikayət etmək hüququna malikdir. Qeyd edək ki, "Rubin" hazırda Rusiya Premyer Liqasında 17 xalla 5-ci pillədə qərarlaşıb.

## "Məni "Yuventus"dan qovdular"



"İtaliya kubokunun finalından sonra hiss etdim ki, nəsə yolunda getməyəcək. Bir müddət sonra Ronaldonu aldılar". Qol.az-ın "La Gazzetta dello Sport" nəşrinə istinadən yaydığı xəbərə görə, bu sözləri "Milan"ın hücumçusu Qonzalo İquain deyib. Ötən mövsümün sonunda "Yuventus"u rossonyerlərə dəyişən argentinalı futbolçu Turin klubundan öz istəyilə ayrılmadığını bildirib:

"Klubdan getmək qərarı mənə aid deyildi. Bacardığım hər şeyi "Yuventus" üçün etdim ki, bu komanda ilə çoxlu titul qazanım. Kriştiano gələndə rəhbərlik mənə dedi ki, burada qala bilməzsən, artıq variantlar axtarırıq, sən satılacaqsan. Ən yaxşı qərar isə "Milan"a keçmək idi".

Təcrübəli forvard "Yuventus"dan qovulduğunu düşünsə də, bu komandaya hələ də bağlı olduğunu söyləyib: "Heç vaxt "Yuventus"dan intiqam almaq barədə düşünməmişəm. Bu komandaya ancaq sevgim var. Çünki hər zaman özümə qarşı yaxşı münasibət görmüşəm. Ancaq heç vaxt rəhbərlikdən məni satmasını xahiş etməmişəm. Sadəcə, məni komandadan qovdular". Qeyd edək ki, İquain 2016-cı ilin yayında "Napoli"dən 90 milyon avroya "Yuventus"a transfer olunmuşdu.

## ELAN

Hacıqabul rayonunun Qarasu kəndində yaşayan Mirzoyev Mirzə Məmmədağa oğluna məxsus Hacıqabul rayonu Aqrar İslahat Komissiyasının 14 aprel 2003-cü il tarixli 1 saylı qərarı ilə verilmiş həyətyanı torpaq sahəsinin mülkiyyətə verilməsinə dair JN 267 saylı Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Hacıqabul rayonunun Qarasu kəndində yaşayan Mirzəyev Rza Məmmədağa oğluna məxsus Hacıqabul rayonu Aqrar İslahat Komissiyasının 14 aprel 2003-cü il tarixli 1 saylı qərarı ilə verilmiş həyətyanı torpaq sahəsinin mülkiyyətə verilməsinə dair JN 266 saylı Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

"Savalan-4" kiçik müəissəsinə məxsus olan vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamə (VÖEN: 1500241711) itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500